# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Haradan başlayır vətən?



13

№ 209 (7377)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 noyabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Prezident İlham Əliyev: "Özbəkistan Azərbaycan üçün qardaş ölkə, etibarlı müttəfiqdir"



2

# ABŞ-da yeni nüvə sınaqları başladı: qlobal nüvə gərginliyi artır



12

### Azərbaycan kinosu: il başa çatır, 5 milyon hələ də gözləyir...



9

### Türkiyə Suriyanın xilaskarı kimi tarixə adını yazdırdı



7

### Rusiya neftindən imtina...



5

### Ailə cinayətləri niyə artır: xəyanət, psixi problem, yoxsa..?



8

### Adı ŞİRİN, özü ACI



12

# Prezident İlham Əliyev: "Özbəkistan Azərbaycan üçün qardaş ölkə, etibarlı müttəfiqdir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



*-Hörmətli cənab Prezident, Siz tezliklə Daşkənddə keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak etməyə hazırlaşırsınız. Siz regional əməkdaşlığın bu formatı barədə nə deyə bilərsiniz? Azərbaycanın bu regionla əlaqələri necə inkişaf edir və əməkdaşlığın indiki səviyyəsi Sizi qane edirmi?*

-Əvvəlcə qeyd etmək istəyirəm ki, bu, mənim Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə sayca üçüncü iştirakım olacaq. Dəvət aldığım ilk görüş 2023-cü ildə Düşənbədə, ikincisi isə 2024-cü ildə Astanada keçirilib və qarşıdakı görüşün Daşkənddə keçirilməsi gözlənilir. Mən dəvətə, həmçinin Azərbaycanın bu mühüm tədbirdə iştirakına göstərilən dəstəyə görə bütün həmkarlarıma, ilk növbədə isə qardaşım Şavkat Mirziyoyevə səmimi təşəkkürümü bildirirəm.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. İlk baxışda Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, Xəzər dənizi, əslində, mühüm birləşdirici amildir. Bu gün Xəzər dənizi, sadəcə, coğrafi anlayış deyil, o, hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir.

Ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir.

Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Hesab edirəm ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoqumuz və qarşılıqlı səfərlərimiz bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır.

Son bir neçə ildə dövlət başçıları arasında qarşılıqlı səfərlərin və təmasların dinamikası münasibətlərimizin yüksək səviyyəsini əyani şəkildə nümayiş etdirir. Belə ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 səfər ediblər və mən özüm də həmin müddətdə qardaş ölkələrdə 13 dəfə səfərdə olmuşam. Orta Dəhlizin artan əhəmiyyəti əməkdaşlığımızın genişləndirilməsi üçün əhəmiyyətli imkanlar yaradır.

Əminəm ki, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşü qardaş xalqlarımız arasında əsrlər boyu davam edən dostluğun möhkəmləndirilməsində, siyasi, iqtisadi, nəqliyyat, investisiya, enerji, mədəni, humanitar və rəqəmsal transformasiya sahələrində çoxsəviyyəli əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli mərhələ olacaq.

*-Hörmətli cənab Prezident, Siz Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı səfərlərin intensivliyini, fəal siyasi dialoqu və yüksəksəviyyəli qarşılıqlı anlaşmanı vurğuladınız. Diqqət yetirdik ki, son bir il yarım ərzində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana beş dəfə səfər edib. Bundan başqa, Siz il ərzində müxtəlif beynəlxalq məkanlarda bir neçə dəfə görüşmüsünüz. Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının hazırkı 30-cu ildönümündə ikitərəfli əlaqələrin vəziyyətini necə xarakterizə edərdiniz?*

-Özbəkistan Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiqdir. Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir.

Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim.



Qardaş Özbəkistanın lideri, görkəmli dövlət xadimi və Azərbaycanın böyük dostu Prezident Şavkat Mirziyoyevi ölkəmizdə salamlamaq bizim üçün həmişə böyük şərəf və məmnuniyyətdir. Qeyd etdiyiniz kimi, son bir il yarım ərzində beş belə səfər olub. Bütün bunlar münasibətlərimizin yüksək dinamikasını əyani şəkildə göstərir.

Keçən ilin avqustunda mənim Özbəkistana dövlət səfərim oldu, bu ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfəri etdi. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalandı. Qısa müddət ərzində çox böyük işlər görüldü. Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.

Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləyib. Fürsətdən istifadə edərək, qardaş Özbəkistana Qarabağın bərpasına verdiyi töhfəyə, xüsusən də azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisinə görə minnətdarlığımı bildirirəm. Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Biz bunu həmişə xatırlayacaq, ölkələrimiz və xalqlarımız arasında həmrəylik, dostluq və qardaşlıq jesti kimi qəbul edəcəyik.

Qardaş ölkəyə qarşıdakı səfəri səbirsizliklə gözləyirəm. Hər dəfə Özbəkistanın dinamik inkişafını və özbək xalqının əldə etdiyi heyranedici nailiyyətləri böyük məmnunluqla müşahidə edirəm. Həyata keçirilən genişmiqyaslı islahatlar və cəmiyyətin bütün sahələrinin ardıcıl müasirləşdirilməsi ölkənin nüfuzunun davamlı artmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir. Bu nailiyyətlər dostum və qardaşım Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətinin göstəricisidir.

Ölkələrimiz arasında əməkdaşlıq təkcə ikitərəfli formatda deyil, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər. Bundan əlavə, münasibətlərimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

*-Azərbaycan ilə Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlığın hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?*

-İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və onun səviyyəsinin daha da artmasına kömək edir. Hər iki tərəf qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb.

Sərmayələr sahəsində əməkdaşlıq da möhkəmlənməyə davam edir. Bu günədək Özbəkistan Azərbaycan iqtisadiyyatına 21,8 milyon ABŞ dolları, həmçinin Azərbaycan Özbəkistan iqtisadiyyatına 183,5 milyon ABŞ dolları sərmayə qoyub. 2023-cü ildə həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb.

Yüngül sənayenin inkişafı üçün yeni imkanlar açan, ənənəvi dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirən birgə müəssisə - Xankəndidə tikiş fabriki xüsusilə diqqətəlayiqdir.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iqtisadi əlaqələrin inkişafı və perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi sahəsindəki aktiv fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Artıq mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır.

Azərbaycan qardaş Özbəkistan ilə iqtisadiyyatın bütün sahələrində əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. Bunun üçün güclü siyasi iradə və əhəmiyyətli potensial mövcuddur. Bu günədək iqtisadi münasibətlərimizin daha da inkişafı üçün etibarlı hüquqi baza yaradan təxminən 200 sənəd imzalanıb. Azərbaycan hər iki tərəfin maraqlarına uyğun olan və xalqlarımız arasında dostluğun, tərəfdaşlığın möhkəmlənməsinə töhfə verən qarşılıqlı faydalı əməkdaşlığı bundan sonra da dəstəkləyəcək.

*-Nəqliyyat, logistika və energetika sahələrində ikitərəfli əməkdaşlığın hansı perspektivlərini görürsünüz?*

-Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir.

2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək.

*Ardı Səh. 3*

# Prezident İlham Əliyev: “Özbəkistan Azərbaycan üçün qardaş ölkə, etibarlı müttəfiqdir”

Əvvəli Səh. 2

Hava nəqliyyatının inkişafı və şəhərlərimiz arasında uçuşların intensivliyi xüsusi əhəmiyyət kəsb edir. AZAL müntəzəm sərnişin reysləri - Bakı-Daşkənd-Bakı (həftədə 7 uçuş), Bakı-Səmərqənd-Bakı (həftədə 2 uçuş) və Bakı-Ürgənc-Bakı (həftədə 2 uçuş) həyata keçirir. Öz növbəsində, ”Uzbekistan Airways” Daşkənd-Bakı-Daşkənd marşrutu üzrə həftədə üç, ”Centrum” isə həftədə iki uçuş yerinə yetirir. Energetika sektorunda əməkdaşlıq və yaşıl enerjinin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir.

2016-cı ildən bəri ”OZLITINEFTGAZ” İnstitutunun və ”SOCAR NIPI Neftegaz”ın bazasında yaradılan ”Neftegaztexnologiya” birgə müəssisəsi uğurla fəaliyyət göstərir.

2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

***-Azərbaycan ilə Özbəkistan arasında mədəni və humanitar sahələrdə əməkdaşlıq barədə nə deyə bilərsiniz?***

-Mədəni və humanitar əməkdaşlıq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində, həmçinin xalqlarımızın birbaşa əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır. Biz ortaq tarixi və mədəni dəyərləri qorumaq, bütün səviyyələrdə sıx əməkdaşlıq etmək üçün birgə səylər göstəririk.

Belə ki, 2023-cü ildə Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri, 2024-cü ildə isə Özbəkistan Elm və Mədəniyyət Günləri keçirilib. Elə həmin il Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri, Xivə şəhərində isə ”Şuşa günləri” təşkil olunub. Bu tədbirlər xalqlarımızın zəngin mədəni irslərini bölüşmək, qarşılıqlı anlaşmanı dərinləşdirmək və bir-birinin mənəvi məkanını qarşılıqlı şəkildə zənginləşdirmək istəyini əks etdirir.

Ölkələrimizin regionları arasında əməkdaşlığa xüsusi diqqət yetirilir. İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokand, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşma və tərəfdaşlıq münasibətləri qurulub. Bu cür regionlararası əlaqələrin fəallaşması xalqların yaxınlaşmasına, təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın mədəni-humanitar gündəliyinin möhkəmləndirilməsinə kömək edir. Ölkələrimiz arasında dostluğun rəmzi ifadəsi mədəni əhəmiyyəti olan obyektlərdir: Daşkənddə Heydər Əliyev meydanı var və bu ilin iyulunda Bakıda ”Özbəkistan” parkının təməli qoyulub.

Fürsətdən istifadə edərək, həmçinin Azərbaycan xalqının Ümummilli Lideri, özbək xalqına həmişə böyük sevgi hissləri bəsləyən Heydər Əliyevin xatirəsinə göstərilən ehtiram və həqiqətən qardaşlıq münasibətinə görə Özbəkistan rəhbərliyinə, bütün qardaş xalqa minnətdarlığımı bildirmək istəyirəm.

Həmçinin idman sahəsində əməkdaşlıqda yaxşı nəticələr var. İki ölkənin birgə səyləri sayəsində FIFA İcraiyyə Komitəsi 2027-ci ildə keçiriləcək futbol üzrə U-20 Dünya çempionatının final mərhələsini Azərbaycanda və Özbəkistanda təşkil etmək qərarına gəlib. Bu, Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir.

Media və qeyri-hökumət təşkilatları sahələrində əməkdaşlıq da məhsuldar inkişaf edir. 2024-cü il sentyabrın 23-dən 25-dək Daşkənddə Birinci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda İkinci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. Bundan əlavə, 2024-cü ilin dekabr ayında Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan Qeyri-Hökumət Təşkilatları Forumu təşkil olunub.

Bütün bu tədbirlər və həyata keçirilən layihələr Azərbaycan ilə Özbəkistanın mədəni, humanitar sahələrdə güclü qardaşlıq münasibətlərini əyani şəkildə nümayiş etdirir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə, mənəvi və mədəni əlaqələrin daha da inkişafına xidmət göstərir.

***-Cənab Prezident, sıx iş cədvəlinizdə bu məzmunlu müsahibəyə vaxt ayırdığınıza görə Sizə minnətdarıq.***

-Özbəkistan cəmiyyətinin həm Azərbaycan-Özbəkistan gündəliyində, həm də bütövlükdə regionda baş verən proseslərə artan marağını qeyd etməkdən çox məmnunam. Qoy, əsrlər boyu qardaş xalqlarımızı və ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələri daha da möhkəmlənsin.

# “Vaşinqtonda əldə olunmuş razılaşmalar regionun inkişafı üçün mühüm rol oynayır”

## Prezident İlham Əliyev ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.***

Nümayəndə heyətinə ”On İki Həvari Kvorumu”nun üzvü Deyvid Bednar, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerard, Stirlinq Fondunun prezidenti və İdarə Heyətinin sədri Mayls Hansen və Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikard daxildir. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyərək, onların regionun inkişafı üçün mühüm rol oynadığını vurğuladı. Donald Trampın yenidən Prezident seçilməsindən sonra Azərbaycan-



ABŞ əlaqələrinin yeni mərhələyə keçdiyini bildirən Prezident İlham Əliyev bu ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı mühüm sənədlərin imzalandığını xatırladı.

Qonaqlar Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, bu kilsənin Bakı ofisinin açılışında iştirak edəcəklərini dedilər və bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi qiymətləndirdilər.

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açıldı, bu istiqamətdə ölkəmizdə bir çox mühüm beynəlxalq tədbirin təşkil edildiyi vurğulandı. Tolerantlığın xalqımızın həyat tərzi olduğu bildirildi, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadığı qeyd edildi.

# Prezident Administrasiyasının rəhbəri Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini ictimaiyyətə təqdim edib

***Noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Ceyhun Ramiz oğlu Cəlilovu muxtar respublikanın ictimaiyyətinə təqdim edib.***

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Təqdimat mərasimində çıxış edən Samir Nuriyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və mədəni inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayır.

Ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən Prezident Administrasiyasının rəhbəri ”Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul edildiyini, davamlı iqtisadi və sosial artıma nail olmaqla muxtar respublikanın inkişafının sürətləndirilməsinin və ölkə iqtisadiyyatına tam





inteqrasiyasının əsas hədəf olduğunu qeyd edib.

Bildirilib ki, Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planına uyğun olaraq əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatının, turizmin, infrastruktur təminatının, sosial sferanın, insan kapitalının və digər sahələrin inkişafı ilə bağlı qaşıda duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmalı və bütün qüvvələr səfərbər edilməlidir.

Azərbaycan Prezidentinin noyabrın 12-də yeni təyinatlarla əlaqədar qəbulda səsləndirdiyi fikirlərə toxunan Prezident Administrasiyasının rəhbəri dövlətimizin başçısının xalqa xidməti, təvazökarlığı, vəzifə borcuna məsuliyyətli yanaşmanı əsas iş prinsipləri hesab etdiyini və hər bir məmurun öz fəaliyyətində bu prinsipləri rəhbər tutmalı olduğunu deyib.

Samir Nuriyev Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrini muxtar respublikanın yeni rəhbərliyinə çatdıraraq dövlətimizin başçısının göstərdiyi etimadın doğruldulacağına ümid etdiyini bildirib. Ceyhun Cəlilov yüksək etimada görə dövlətimizin başçısına dərin təşəkkürünü bildirib və göstərilmiş etimadı doğruldacağını qeyd edib.

# Prezidentdən məmurlara ismarıc

## "Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir"

Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. İqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Təbii ki, uğurlu islahatların aparılması ölkəmizdə sabitliyin mövcudluğundan qaynaqlanır. Ölkəmiz dünyada belə sabitlik adası kimi tanınıb. Dövlət başçısı çıxışlarında vurğuladığı kimi, Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır: "Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görürlər".





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbulu zamanı çıxışı edərək öz tabşırıq və tövsiyələrini verib. "Siz ölkəmizin müxtəlif bölgələrinə rəhbər vəzifələrə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Siz öz işinizlə, əməyinizlə qarşıda duran vəzifələrin icrası üçün səylərinizi əsirgəməyəcəksiniz", - deyən Prezident bildirib ki, böyük məsuliyyət böyük işlər tələb edir: "İlk növbədə, mənim bütün tapşırıqlarımı yerinə yetirməlisiniz. Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın".

### "ƏYRİ YOLA GEDƏN HƏR BİR DÖVLƏT MƏMURU NƏTİCƏDƏ MƏHKƏMƏ, QANUN QARŞISINDA CAVAB VERMƏLİ OLUR"

Azərbaycan Prezidenti bəzi hallarda məmurların özlərini cəmiyyətdə düzgün apara bilmədiklərini, ifrat dərəcədə təkəbbürlülük göstərdikləərini, özlərini hamıdan üstün tutmağa çalışdıqlarını diqqətə çəkərək öz nüfuzlarını itirməklə yanaşı, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olduqlarını bildirib. "Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir".

Yaranmış reallıqlar dövrün tələbinə uyğun olaraq qarşıya yeni hədəflər qoyub. Azərbaycan artıq dünyaya öz sözünü deyən, qalib dövlət kimi səs salıb. Özünü təsdiq etmiş, gələcək inkişaf imkanlarına malik güclü dövlət olduğunu sübut edib. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib, qarşıya qoyulan hədəflərə uyğun olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

### "BİR NEÇƏ REGİONAL İNKİŞAF PROQRAMININ İCRASI UĞURLA NƏTİCƏLƏNİB"

Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlərin - xəstəxanaların, yeni yolların, mədəniyyət, xidmət mərkəzlərinin, yeni iş yerlərinin və s. istifadəyə verilməsi ölkəmizdə uğurlu siyasətin məntiqi nəticəsidir. "Bizim bölgələrimizdə əsas infrastruktur layihələri demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib", - deyən dövlət başçısı qeyd edib ki, demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələlərinin olduğunu və bu problemin artıq ciddi problem kimi mövcud olmadığını diqqətə çatdırıb: "Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır".

### "BİR ÇOX BÖLGƏLƏRDƏ KƏND YOLLARININ TƏQRİBƏN 70-80 FAİZİ TƏMİRLİDİR VƏ KEYFİYYƏTLİDİR"

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən son illərdə ölkəmizdə yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Təbii ki, nəqliyyat-yol infrasturukturunun inkişafı və yenilənməsi hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Azərbaycan Prezidentinin vurğuladığı kimi, "Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilmərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının təqribən 70-80 faizi təmirlidir və keyfiyyətlidir.

Bütün şəhərlərdə içməli su layihələri icra edilir. Kəndlərdə də içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir, yeni su anbarlarının, su kanallarının tikintisi və suvarma ilə bağlı vəziyyət, ümumiyyətlə, müsbətə doğru dəyişir. Bütün digər infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri, məktəb tikintisi, xəstəxanalar, idman obyektləri. Yəni, bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır. Hər bir şəhərdə müasir xəstəxana fəaliyyət göstərir və bütün bunlar, əlbəttə ki, həm böyük vəsait, həm də gündəlik diqqət tələb edir". Bütün görülən bu və ya digər işlər dövlət xətti ilə, dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramları çərçivəsində reallığa çevrilib.

"Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir", - deyən Prezidenti son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşının əyani şəkildə gördüyünü bildirib: "Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni, bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar".

### "MƏRKƏZİ İCRA ORQANLARINDA APARILAN KADR İSLAHATLARI NƏTİCƏSİNDƏ VƏZİYYƏT BÖYÜK DƏRƏCƏDƏ SAĞLAMLAŞDIRILIB"

Azərbaycanda həyata keçirilən islahatlar, dövlət proqramları, layihələr ölkəmizi sürətlə inkişaf edən ölkəyə çevirib. Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Son 22 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır. Dövlət başçısı çıxışında yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlərin öz həllini tapmasını diqqətə çəkərək, burada da əsas prinsipin sosial ədalət prinsipi olduğunu qeyd edib: "Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb".

Bundan sonrakı dövrdə isə mərkəzdən onlara hansısa bir qanunsuz tapşırıq verilməyəcəkdir. "Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkin-biçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir", - deyə Prezident bildirib.

### "BÖLGƏLƏRDƏN ŞƏHƏRLƏRƏ MİQRASİYANIN SƏBƏBLƏRİNDƏN BİRİ DƏ İŞSİZLİKDİR"

Ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində olan məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. Son 22 ildə regionların tarazlı inkişafı bölgələrdə çoxsaylı və müxtəliftəyinatlı müəssisələrin açılmasına imkan verib ki, bu da istər rayon mərkəzlərində, istərsə də kəndlərdə yaşayan insanların öz məşğulluq problemini həll etməsi ilə nəticələnib. Bölgələrdə əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Azərbaycanda bütövlükdə məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. "Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda, bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir", - deyə Prezident vurğulayıb ki, bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub.

Dövlət başçımız çıxışında bir sıra məsələlər toxunub və yeni təyin olunmuş məmurlara göstərişlərini verib: "Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız".

Prezident bir daha məmur korpusuna ciddi ismarıc göndərdi və hamını dövrün tələbləri səviyyəsində fəaliyyətə çağırdı.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Rusiya neftindən imtina...

## Çin və Hindistandan sonra digər alıcılar da Moskva ilə ticarəti aşağı salıblar

***Rusiyanın yanacaq ixracı ABŞ-ın sanksiyaları səbəbindən sürətlə azalır. Bu, Ukraynadakı müharibəyə necə təsir edəcək? Çin, Hindistan və Türkiyədəki alıcılar alışlarını azaltmaqla Rusiya neftinin tədarükü bir ilin ən aşağı səviyyəsinə düşüb. Rusiya hər gün milyonlarla dollar itirir. Bu, Rusiyanın Ukraynaya qarşı müharibəsinə necə təsir edə bilər?***

Sanksiyalar həqiqətən işə yaramağa başlayır. ABŞ-ın yeni sanksiyalarından sonra əsas Asiya müştəriləri satın almaqdan imtina etməklə Rusiyanın dəniz yolu ilə neft daşımaları kəskin şəkildə azalıb. Bloomberg-in məlumatına görə, Rusiyanın dəniz neft daşımaları gündə 190 min barel azalıb ki, bu da ilin əvvəlindən bəri ən böyük azalmadır. Bu, ABŞ-ın əsas ixracatçıları Rosneft və Lukoil-a qarşı sanksiyalarının birbaşa nəticəsidir. Ekspertlər qeyd edirlər ki, "sanksiyalar həqiqətən də təsir etməyə başlayır. Hətta Moskvanın adi həll yolları da artıq işləmir".

Bu arada, Ukrayna prezidentinin sanksiyalar siyasəti üzrə komissarı Vladislav Vlasyuk da Rusiyadan neft alışının azaldığını qeyd edib və bunun başlanğıc olduğunu proqnozlaşdırıb. "Mənbələrimiz artıq Rusiya neftinin Hindistan və Çinə gələcək daşınmalarına dair müqavilələrin sayının təxminən 20% azaldığını bildirir. Eyni zamanda, xatırlayırıq ki, ABŞ-ın sanksiyaları noyabrın 20-dək qüvvəyə minməyəcək. Yəni, onlar hələ qüvvəyə minməyib və biz artıq ilk nəticələri görürük", - o deyib.








Əvvəllər bütün Rusiya neftinin 95%-dən çoxunu qəbul edən Çin, Hindistan və Türkiyədəki neftayırma zavodları satınalmaları dayandırıb və alternativ təchizatçılar axtarır. Bəzi yüklər ümumiyyətlə boşaldılmır, dənizdə 380 milyon bareldən çox neft yığılıb, indi ehtiyac yoxdur. Bloomberg bildirir ki, Rusiya bütün barellərin üçdə birindən çoxunu sözün əsl mənasında "heç yerə" yükləyir. Tankerlər həftələrlə ləngiyir, kiminsə məhsulu endirimlə almasını gözləyirlər. Çin Rusiya neftinin idxalını demək olar ki, yarıya endirib.

Dünyanın ən böyük alıcısı olan Çin artıq sahillərinə gedən bəzi yükləri ləğv edərək, idxalı 45% azaldıb. Rystad Energy AS konsaltinq şirkəti hesab edir ki, Çindəki alıcıların qərarından sonra gündə təxminən 400 000 barel və ya Çinin Rusiyadan ümumi neft idxalının 45%-ə qədəri Çin neftayırma zavodlarına çatmayıb.

Treyderlərin sözlərinə görə, Sinopec və PetroChina Co kimi Çin dövlət neft emalı zavodları ABŞ-ın keçən ay Rosneft və Lukoil-a qarşı sanksiyalarından sonra bəzi Rusiya neft yüklərini ləğv edib. Kiçik özəl neft emalı zavodları da bu yaxınlarda Böyük Britaniya və Aİ-nin sanksiya siyahısına salınmış Shandong Yulong Petrochemical Co.-nun çəkdiyi cəzaya bənzər cəzadan qorxaraq Rusiya neft yüklərindən çəkinir. Hindistan Rusiya neftini Yaxın Şərq və Amerika xam nefti ilə əvəz edir.

Əvvəllər xam neftinin 34%-ni alan Hindistan da Rusiya neftinin alışını dayandırır. Verilən məlumata görə, Hindistanın ən böyük idxalçısı "Reliance Industries Ltd" şirkəti ABŞ-ın əsas təchizatçısı Rosneft-ə tətbiq etdiyi sanksiyalardan sonra keçən ay Moskva ilə neft ticarətini dayandırıb və Yaxın Şərqdən (BƏƏ, Qətər, İraq) və Amerikadan (Braziliya və ABŞ) ən azı 12 milyon barrel spot xam neft alıb. Hindistan şirkəti Moskvaya qarşı sanksiyalara əməl edəcəyini bəyan edib. Bloomberg-in məlumatına görə, 2025-ci ilin oktyabr ayına olan məlumata görə, Hindistanın Rusiya neftinin ən böyük idxalçısı olan Industries Ltd. Rosneft ilə uzunmüddətli müqavilə əsasında xam neft alır. ABŞ prezidenti Donald Tramp artıq Rusiyadan neft idxalını azaltdığına görə Hindistana tarifləri azaltmağa söz verib. "Hazırda Rusiya neftinə görə Hindistan üçün tariflər çox yüksəkdir və o, Rusiya neftinin idxalını dayandırıb. Onlar (Rusiyadan neft tədarükü - red.) əhəmiyyətli dərəcədə azaldılıb. Ona görə də biz tarifləri azaldacağıq", - Ağ Ev rəhbəri qeyd edib.

Xatırladaq ki, avqust ayında ABŞ Hindistanın Rusiya neftini almasına görə ona 25% cəza rüsumları tətbiq edib. Bundan əvvəl Tramp Hindistan idxalının geniş çeşidinə 25% rüsum tətbiq etdiyini açıqlamışdı.

### Türkiyə Qazaxıstandan idxalı artırır

Türkiyə də Rusiya neftinin alışını azaldır və aktiv olaraq alternativ tədarük mənbələri axtarır. Əsas səbəb ABŞ-ın sanksiyalarıdır. Onlar türk şirkətləri üçün ikinci dərəcəli sanksiyalar riskini artırır, sığorta və ticarətin maliyyələşdirilməsini çətinləşdirir. Türkiyə artıq Qazaxıstan, xüsusən də keyfiyyət baxımından Rusiyanın Urals neftinə bənzəyən KEBCO markalı neftinin idxalını artırır. Rusiyadan yan keçməklə Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə ixracın artırılması yolları da müzakirə olunur. Türkiyə neft emalı zavodları da Səudiyyə Ərəbistanı və İraq da daxil olmaqla, Yaxın Şərq xam neftinin alışını artırır.

Bundan əlavə, Türkiyə Rusiyadan idxalın azalmasının qarşısını almaq üçün Liviyada yeni neft və qaz kəşfiyyatı müqavilələri də daxil olmaqla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bəyan edib. Yeni xam neft mənbələri kimi İraq, Anqola və Braziliyanın da adı çəkilir. Türkiyənin ən böyük neft emalı zavodları (STAR və Tüpraş) qeyri-rus xam neft paylarını artırır və Tüpraş hətta Avropaya yanacaq ixrac etmək imkanını qorumaq üçün öz neft emalı zavodlarından birində Rusiya neftinin emalını tamamilə dayandırmağı planlaşdırır.

### Moskva milyardlarla pul itirir

İxracın azalması artıq Rusiya büdcəsinə təsir edir: dəniz yolu ilə daşınmalardan əldə olunan gəlir cəmi bir həftə ərzində 27% azalaraq 1,15 milyard dollara düşüb. Bu, avqust ayından bəri ən aşağı səviyyədir. Rusiyanın Urals xam neftinin orta qiyməti G7-nin qiymət tavanından və qlobal orta qiymətin təxminən yarısından aşağı, yəni bir barel üçün 51 dollara düşüb. Neftin büdcənin əsasını təşkil etdiyi ölkə üçün bu, fəlakətdir. Gündəlik tankerlərin dayanması və hər qiymət enişi birbaşa infrastruktur və səhiyyəyə deyil, Ukraynaya qarşı müharibəyə xərclənən milyonlarla dollara başa gəlir.

### Sonra nə var?

Ekspertlərin də qeyd etdikləri kimi, Rusiya neftinin ixracının gələcəyi ABŞ-ın sanksiyalardan yayınmağı nə dərəcədə qətiyyətlə dayandırmasından asılıdır. Təzyiq davam edərsə, Moskva elə bir vəziyyətə düşəcək ki, nefti satmağa və saxlamağa heç bir yeri olmayacaq. Rusiya faktiki olaraq öz neftində boğulur. Amma onun üçün ən pisi, neft satıla bilmirsə və onu saxlamaq üçün heç bir yer yoxdursa, quyularının gübrələnməsidir. Ukrayna neftayırma zavodlarını dağıdıb, anbarlar da yoxdur. Onların bir çoxu üçün quyuların gübrələnməsi geri dönməz olacaq, çünki onlar demək olar ki, tamamilə tükənmiş vəziyyətdədir. Bu sanksiyaların təsiri bir ay və ya ay yarım sonra qiymətləndiriləcək. O zaman Rusiya neftinin Hindistan və Çinə tədarük edilən barel həcminin nə qədər azalacağı, eləcə də ixrac gəlirlərinin nə qədər azalacağı bəlli olacaq.

Ukrayna prezidenti Vladimir Zelenski bəyan edib ki, bu yaxınlarda tətbiq olunan sanksiyalardan Rusiyaya dəyən ziyan ildə ən azı 50 milyard dollar olacaq. "Biz artıq neft şirkətlərinə tətbiq edilən məhdudiyyətlərdən Rusiyaya əhəmiyyətli zərəri qeydə alırıq və hesab edirik ki, Moskvaya prinsipial və ardıcıl təzyiqlər davam edərsə, onların təkcə bu yaxınlarda tətbiq edilmiş məhdudiyyətlərdən itkiləri ildə ən azı 50 milyard dollar təşkil edəcək".

### Rusiyanın müharibə aparmaq qabiliyyətinə təsir

İlk növbədə neft sektorunu hədəf alan yeni sanksiyalardan Rusiyaya ildə 50 milyard dollar potensial zərər Kremlin hərbi maşınının maliyyələşdirilməsinə birbaşa təsir edəcək. Rusiya büdcəsinin əsasını təşkil edən neft gəlirlərinin azalması valyuta gəlirlərinin azalmasına və nəticədə Rusiyanın hərbi istehsalın yüksək templərini saxlamaq və silahlar üçün idxal komponentləri almaq imkanlarının zəifləməsinə gətirib çıxaracaq. Maliyyə resurslarının azalması ordunun təminatını, müqaviləli əsgərlərə ödənişləri, uzunmüddətli hərbi layihələrə investisiyaları çətinləşdirəcək. Təsiri dərhal olmasa da, ardıcıl və prinsipial sanksiya təzyiqi Rusiyanın Ukraynaya qarşı uzunmüddətli müharibə aparmaq qabiliyyətinin asılı olduğu iqtisadi bazanı tədricən tükəndirəcək.

### Neftə tələbatın pik həddi

Beynəlxalq Enerji Agentliyinin (BEA) illik "World Energy Outlook" hesabatında 2030-cu ilədək neftə tələbatın pik həddi 102 milyon barel/gün olacaq. Bu meyar ölkələr elan etdikləri planlara uyğun olaraq iqlim siyasətini həyata keçirdikdə və yeni iddialı iqlim hədəfləri təyin etdikdə reallaşan "elan edilmiş ssenari"yə daxil edilir. Qeyd edək ki, hesabatda reallığa uyğun olmayan bu ssenari əsas kimi təqdim olunur. Bu ssenariyə əsasən, 2030-cu ildən sonra neftə tələbat qismən də elektromobillərin yayılması ilə əlaqədar azalmağa başlayacaq: onların sayı 2035-ci ilə qədər 840 milyona çatacaq (hazırda 60 milyon civarında). BEA-nın hesablamalarına görə, elektrik avtomobilləri, ilk növbədə, Asiya və Avropada neft istehlakını getdikcə "yerindən çıxaracaq". Onların ümumi yeni avtomobil satışlarında payı 2035-ci ilə qədər indiki 25%-dən 50%-ə yüksələcək.

BEA həmçinin bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqlim öhdəliklərinə məhəl qoymamağa davam etdiyi və bərpa olunan enerjinin qəbulu sürətinin artmadığı konservativ ssenarini nəzərdən keçirir. Bu ssenaridə 2030-cu ildən sonra neft istehlakı, o cümlədən aviasiya və neft-kimya hesabına artmağa davam edəcək. Təkcə 2050-ci ildə tələbat sutkada 113 milyon barel (2024-cü ildəkindən 13% çox) pik həddə çatacaq.

Qeyd edək ki, agentlik əvvəllər öz hesabatlarında bu ssenarini nəzərə almayıb. Onun daxil edilməsi, bir tərəfdən, getdikcə daha çox ölkənin təvazökar iqlim hədəflərini elan etməsi, digər tərəfdən isə ABŞ prezidenti Donald Trampın BEA-nı "qeyri-real" proqnozlarına görə açıq şəkildə tənqid edən və təşkilata maliyyəni kəsməklə hədələməsi ilə bağlı ola bilər. Hesabata görə, istənilən ssenaridə təbii qaza tələbat 2030-cu illərdə artmağa davam edəcək. Bununla belə, BEA-nın hesablamalarına görə, Rusiya sanksiyalara görə Avropaya boru kəməri ilə nəql olunan qazın itkisini başqa istiqamətlərdən qaz ixrac etməklə tam kompensasiya edə bilməyəcək. Asiya ölkələrinə ixracın artmasına baxmayaraq, Rusiyanın ümumi qaz tədarükü 2035-ci ilə qədər azalacaq. Bu, aşağı qiymətlərlə birlikdə Rusiyanın qaz gəlirlərinə təsir edəcək: 2010-cu illərdə hər il orta hesabla 120 milyard dollar olduğu halda, bu rəqəm 2030-cu illərdə 28 milyard dollara düşə bilər.

***V.VƏLİYEV***

# Qarabağın tacı Şuşanın Şəhər günü

## Prezident İlham Əliyev: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir"

***Xalqımız bir-birinin ardınca əlamətdar günlərə şahidlik edir. Bu gün 8 Noyabr Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Şuşa Şəhəri Günüdür. Şəhər 2020-ci il noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən düşmən tapdağından azad olundu. Şuşanın alınması Ermənistanı tam tərksilah etdi, onun bütün manevr imkanları çökdü. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Dövlət başçısı tərəfindən Şuşa sevincini yaşadıqdan sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı.***

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deyən Azərbaycan Prezident İlham Əliyevin rəhbərdiyi ilə Azərbaycan ordusu bütün dünyaya bizim qalib, yenilməz, məğrur xalq olduğumuzu göstərə bildi. Şuşa şəhərinin işğaldan azad olunması Azərbaycanın hərbi-diplomatik uğurlarının təzahürüdür. Qarabağın incisi hesab olunan Şuşa şəhərinin rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi əlbəttə ki, müharibənin sonrakı gedişinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi.

Qarabağın tacı, xalqımız üçün müqəddəs və əziz məkan olan olan Şuşa da neçə illik həsrətdən sonra azad olundu. Şuşamızı düşməndən geri aldıq, qan tökə-tökə, sevgi ilə - vətən sevgisi ilə qazandıq bu qələbəmizi. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Belə bir tarixi keçmiş olan Şuşaya yeni həyat bəxş olunub. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan Şuşa yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir tariximizdə rol oyamışdır. Şərqi Konservatoriyası adını almış Şuşa böyük mütəfəkkirlərin oylağı kimi də şöhrət tapmışdır. Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmış Şuşanın işğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılsa da bu gün yenidənqurma, bərpa işlərinə başlanılmışdır.

### "BUNDAN SONRA BİZ ŞUŞADA ƏBƏDİ YAŞAYACAĞIQ"

Ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 il müddətində davam edən işğala cəmi 44 gün müddətində son qoymağı bacardı, Ermənistanı diz çökdürdü, təslim olmağa məhkum etdi. Bu tarixi qələbə Azərbaycan tarixinə məğlubedilməzlik kimi həkk olundu. Ali Baş Komandan İlham Əliyev ən yeni tariximizə Zəfər Sərkərdəsi kimi möhrünü vurdu. Bu gün Azərbaycan yeni bir dövrünü yaşayır. İşğal altından azad olunan ərazilərimiz kimi Şuşada da abadlıq-quruculuq işləri sürətlə davam




etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Şuşa bu gün yeni bir dövrünə qədəm qoyub. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, müqəddəs şəhər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi haqqında Sərəncamı bu şəhərin böyük mədəniyyət beşiyi olduğunu bir daha təsdiqlədi. Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Hər daşı, hər abidəsi yenidən qurulur. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir".

Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri - güllələnmiş heykəllər Şuşaya yenidən qaytarıldı. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalı keçirildi. Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" musiqi festivalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həm də cavab oldu.

15 iyun 2021-ci ildə "Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması iki ölkə arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunun təzahürüdür. İdeoloji mərkəzə çevrilən Şuşada imzalanan Müttəfiqlik haqqında Bəyannamə dost ölkələr arasındakı əlaqələri daha yüksək zirvəyə qaldırdı. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir sıra qarşılıqlı bağlara malik olan xalqlar bütün zamanlarda bir-birinə dəstək olublar və bu gün də belədir. Təbii ki, iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz, eləcə də bölgə üçün önəmli layihələr reallaşır. Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə, eləcə də Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanır.

### "ŞUŞA 28 İL YARIM ƏSARƏTDƏ İDİ, ANCAQ ƏYİLMƏDİ, SINMADI, ÖZ LƏYAQƏTİNİ QORUDU"

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksi açılıb. Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması ilə yanaşı Şuşada Yaradıcılıq Mərkəzi də istifadəyə verilib. Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir. Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamız tarixi günlərini yaşayır. Bütün bu və ya digər tarix, mədəniyyət abidələrinin təmir və bərpası ilə yanaşı, dövlət başçısı tərəfindən Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin də təməli qoyulub. Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq. Cənab Prezident çıxışlarını birində "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu", - deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etmiş oldu.

Ulu Öndər Heydər Əliyev Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün böyük dəyərini belə ifadə etmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur". 28 illik həsrətdən sonra Şuşa azad olunanda "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir", - deyə Cənab Prezident bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Türkiyə və Pakistan liderlərinin Zəfər paradında iştirakı Azərbaycan əleyhdarlarına ciddi xəbərdarlıq mesajı oldu"

"Noyabrın 8-də Azadlıq Meydanında keçirilən və tarixi Zəfərimizin 5 illiyinə həsr olunmuş hərbi parad təkcə ölkəmizin hərbi qüdrətini və zəfər ruhunun təcəssümü olmadı, bu tarixi zəfər yürüşü həm də dünyanın güclü dövlətlərinin Azərbaycana olan etimad və rəğbətinin göstərcisi idi. Çünki dünən Azərbaycana qardaş olan Türkiyə və Pakistan kimi güclü ölkələrin liderlərinin və hərbçilərinin bu paradda iştirakı dünyada analoqu olmayan, bənzəri tapılmayan bir hadisə idi. Bu, ilk növbədə Azərbaycana qarşı məkrli mövqe tutan qüvvələrə ciddi xəbərdarlıq mesajı idi".



Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, 44 günlük müharibə zamanı rəmsi Ankara və İslamabadın açıq şəkildə Azərbaycanın haqq davasına göstərdikləri dəstək həm də tarixi qardaşlıq münasibətlərinin növbəti sübutu kimi dəyərləndirilməlidir. Təbii ki, Türkiyə və Pakistanla münasibətlərimiz yüksələn xətt üzrə inkişaf edir. Bu əlaqələr siyasi, hərbi, iqtisadi, mədəni və sosial bütün sahələri əhatə edən dərin dostluq və qardaşlıq münasibətlərinə əsaslanır. Əlbəttə, bu əlaqələrin sıx tellərlə bağlı olmasında Azərbaycan, həm Türkiyə, həm də Pakistan rəhbərlərinin şəxsi dostluğu da mühüm rol oynayır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Zəfər yürüşündə qeyd etdiyi kimi, bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür. Azərbaycan-Türkiyə-Pakistan tərəfdaşlığı həm də rəsmi Bakının bölgədənin lider ölkəsi kimi təsir gücünü və təhlükəsizlik imkanlarını artırır.

***Ayşən Vəli***

# Türkiyə Suriyanın xilaskarı kimi tarixə adını yazdırdı

***Dünyanı cənginə alan qanlı müharibələr, münaqişələr fonunda bəzi ölkələrdə tədricən sakitlik bərqərar olunmaqdadır. Buna misal olaraq 2024-cü ilin dekabrın 8-də Bəşər Əsəd rejiminin devrilməsi ilə Suriyada 13 illik vətəndaş müharibəsinin baş çatması və ölkədə tədricən sabitliyin yaranmasını göstərmək olar. Eyni zamanda, Qəzza bölgəsində İsrailin HƏMAS-a qarşı başladığı müharibənin ABŞ, Azərbaycan, Türkiyə, Pakistan, Qətər və digər ölkələrin fəal müdaxiləsi ilə dayandırılması və bölgədə sülhün yaradılması istiqamətində proseslərin həyata keçirilməsi də təqdirəlayiq hadisələrdəndir. Təbii ki, Suriyada vətəndaş müharibəsinin aradan qaldırılmasında Türkiyənin müstəsna rolu oldu. Bunu Suriya hakimiyyəti, eləcə də sadə suriyalılar da yaxşı bilir və buna görə hər fürsətdə Türkiyə hakimiyyətinə və xalqına təşəkkürlərini ifadə edirlər.***





Türkiyənin Suriyanın müdafiəsini təşkil etməsi və Dəməşqdə yeni demokratik hakimiyyətin qurulmasına yardımçı olması İsrail və indiki fars-molla rejimi bir-birinə qarşı düşmən olmalarına baxmayaraq, bu məsələdə eyni mövqedən çıxış etməyə başladılar. Əgər fars-molla rejiminin baş mollası Xomeneini Suriya gənclərini inqilaba qalxıb, hakimiyyəti devirməyə çağırırdısa, İsrail hökuməti Suveyda vilayətində baş verən druzlarla bədəvi ərəblər arasında toqquşmaları bəhanə edərək birincilərə kömək etmək bəhanəsi ilə Suriyanın ərazilərinə qoşun yeridir. Bu azmış kimi bir qədər əvvəl İsrail Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələri Suriya paytaxtının şimalındakı Masakin Berzi bölgəsində yerləşən hərbi obyektə raket zərbəsi endirib. Məlumata görə, hava hücumundan sonra Dəməşq və onun ətrafında güclü partlayışlar baş vermişdir. Eyni zamanda İsrail Ordusu Həma və Homsdakı hərbi aerodromların ətrafındakı ərazilərinə raket zərbələri endirmişdir. İsrail Suriyanın yeni hakimiyyətinin zəif olunmasından bəhrələnərək ölkənin içərilərinə doğru ordu yeritmişdir. Suriyanın yeni administrasiyasının rəhbəri Əhməd əş-Şaraa rəsmi görüşlərdə bəyan etmişdir ki, beynəlxalq tərəflər Suriyanın 1974-cü il razılaşmasına əməl etməsi və ölkənin BMT qüvvələrini qəbul edib onları müdafiə etməyə hazır olması barədə məlumatlandırılıb. Onun sözlərinə görə, hər kəs İsrailin Suriyaya doğru irəliləməsinin səhv və əvvəlki vəziyyətə qayıtmağın lazım olduğunu qəbul edir.

## Türkiyə hakimiyyəti Suriyanın sabitliyini Türkiyənin təhlükəsizliyi hesab edir

Az qala bütün dünyaya meydan oxuyan İsrail Suriyanın şağırışlarına əhəmiyyət vermədi. Dünya birliyinin susması və baş verənlərə laqeyid yanaşması nəhayət Türkiyəni hərəkətə keçməyə məcbur etdi. Türkiyə dövlətinin Suriyadakı hərbi bazalarındakı ordusunu döyüş hazırlığı vəziyyətinə gətirməsi İsraili və onun havadarlarını geri çəkilməyə məcbur etdi. Oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Qəzzaya dair "Sülh sammiti"də ABŞ prezidenti Donalt Tramp 3-cü dünya müharibəsinin astanasında olduqlarını və sammitin keçirilməsi ilə problemin aradan qaldırıldığını bildirmişdir. Əslində, D.Tramp 3 -cü dünya müharibəsi təhlükəsi deyərkən heç şübhəsiz ki, Türkiyənin Suriyanın təhlükəsizliyini təmin etmək üçün hərbi aktivlik göstərməsinə işarə vurub. Türkiyə dövləti açıq şəkildə bəyan edir ki, Suriyanın sabitliyi birbaşa Türkiyənin təhlükəsizliyi ilə bağlıdır və bu istiqamətdə atılan hər bir addım regionda sülhün təmin olunmasına töhfə verir. Bunu Türkiyənin Müdafiə Nazirliyi Ankaranın Suriya hökumətinin ölkəsinin birliyini və bütövlüyünü qorumaq üçün gördüyü istənilən addımı dəstəkləməyə hazır olduğunu vurğulayıb: "Türkiyə əmindir ki, Suriya separatçı ünsürlərin güclənməsinin qarşısını alaraq, ölkənin ərazi bütövlüyü və suverenliyini təmin edəcək mərkəzləşdirilmiş idarəetmə modeli vasitəsilə sabitliyə nail olacaq".

Türkiyə bütün sahələr üzrə Suriya ilə əməkdaşlıq edir, müqavilələr imzalayır. 2005-ci ilin avqustun 13-də Türkiyə ilə Suriya arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Memorandum imzalanıb. Müqaviləyə əsasən, Türkiyə Suriya Silahlı Qüvvələrinin potensialının gücləndirilməsinə yönəlmiş təlim və məşvərət tədbirləri həyata keçirəcək. Türkiyə Suriyanın dağılmış iqtisadiyyatının bərpa edilməsi üçün davamlı işlər görməkdədir. Türkiyənin ticarət naziri Ömər Bolat Suriyaya səfəri zamanı iki ölkə arasında iqtisadi əlaqələrin sürətlə genişləndirilməsi istiqamətində konkret planlar təqdim edib: "Türkiyə Suriyanın sabitliyini və inkişafını özünün də təhlükəsizliyi və rifahı üçün mühüm hesab edir. Görüşlərdə qarşılıqlı investisiyaların təşviqi və qorunması, ikiqat vergitutmanın aradan qaldırılması, bank sistemində əməkdaşlıq, türk banklarının Suriyada fəaliyyəti, Ro-Ro xidmətləri və gömrükdəki problemlərin həlli müzakirə olunub".

Ömər Bolat bildirib ki, tərəflər arasında İqtisadi Tərəfdaşlıq Sazişinin hazırlanması üçün razılıq əldə olunub. Suriyanın iqtisadiyyatının dirçəldilməsi üçün nəqliyyat infrastrukturunun bərpası və xarici sərmayələrin cəlbi planlaşdırılır. Türkiyənin ticarət naziri Suriyanın özəl sektoru ilə türk sahibkarları arasında birgə layihələrin təşviqinə diqqət çəkib və bu sahədə yeni sənaye zonalarının yaradılacağını bildirib.

Suriyaya göstərilən hərbi, siyasi, iqtisadi, diplomatiq dəstəklə yanaşı Türkiyə Bəşər Əsəd rejiminin səhv, yanlış siyasəti səbəbindən Suriyaya qarşı tətbiq olunan beynəlxalq sanksiyalarından ləğv olunmasına öz töfhəsini verir. Artıq Avropa İttifaqı və ABŞ Suriyaya qarşı iqtisadi sanksiyaları ləğv etdiklərini bəyan ediblər. Bunun fonunda Avropanın bəzi dövlətləri, o cümlədən ABŞ Suriyanın yenidən qurulması üçün bu ölkəyə maliyyə yardımları ayrırlar. Ötən həftə Suriya Prezidenti Əhməd Şaranın Ağ Evdə ABŞ Prezidenti Donald Trampla görüşü və apardığı danışıqlar rəsmi Dəməşqin mövqelərinin daha da möhkəmlənməsinə təkan verib. Suriyanın xarici işlər naziri Əsəd Şeybani və ABŞ dövlət katibi Marko Rubio da iştirak etdiyi görüşdə ABŞ-Suriya ikitərəfli münasibətlərin gücləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə edilib. Görüşdən sonra Suriya Prezidenti Əhməd Şara jurnalistlərə bildirib ki, D.Trampla çox səmimi və yaddaqalan görüşü keçirilib: "Danışıqlar zamanı diqqət Suriya Ərəb Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərə, onları gücləndirmək və inkişaf etdirmək yollarına, eləcə də qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlərə yönəlib".



## Prezident Əl-Şaraa İsraildən işğal etdiyi Suriya torpaqlarını boşaltmağı tələb edir

"The Washington Post" nəşrinin qeyd etdiyinə görə, Ağ Evdə keçirlən görüşdə Əhməd Şaraanın Donald Trampın diqqətinə İsrailin işğal etdiyi Suriya torpaqlardan çəkilməsini tələb edib və Tramp onun mövqeyini və sülh prosesinə dəstək verib. Nəşr onda yazır ki, Suriya prezidenti Əhməd əl-Şaraa ABŞ səfərindən sonra verdiyi müsahibələrdə bəyan edib ki, İsraillə sülh danışıqları yalnız ədalətli şərtlərlə mümkündür. "İsrail işğal etdiyi torpaqlardan çəkilməyincə heç bir razılaşmadan söhbət gedə bilməz. Suriya beynəlxalq vasitəçilərin iştirakı ilə dolayı danışıqlar aparır. "Yekun saziş üçün İsrail Əsəd rejiminin süqutundan əvvəlki sərhədlərə dönməlidir. ABŞ və prezident Tramp bu məsələnin həlli üçün təzyiq göstərəcəyinə söz verib".

Prezidenti Əhməd Şaraa Dəməşqin cənubunda demilitarizasiya zonası ideyasını rədd edərək bildirib ki, mövcud ərazilər Suriyaya məxsusdur və biz onun taleyinə özümüz qərar verməliyik. Əl-Şaraa onu da qeyd edib ki, Donald Tramp prezidentliyinin birinci dövründə İsrailin Colan təpələri üzərində suverenliyini tanıyıb. "İndi isə İsrail həmin təpələri qorumaq bəhanəsi ilə yeni əraziləri işğal edir. Belə getsə, bu ekspansiya Münhenə qədər gedər".

## Suriya cəmiyyətinin həyatında yeni dövr başlayır

Suriya prezidenti Əl-Şaraanın düşünülmüş ağıllı siyasəti ona hörmət gətirməklə yanaşı, dövlətinə qarşı olan mənfi münasibətlərin aradan qaldırılmasına imkanlara yaradır. Xüsusilə də Bəşər Əsəd rejimindən qalma sanksiyaların aradan qaldırılması və Suriyanın dirçəldilməsi üçün yeni investisiya layihələrin ölkəyə cəlb edilməsi Suriya cəmiyyətinin həyatında yeni dövrün başlandığına əsas verir. Hesab olunur ki, Türkiyə siyasi dairələrinin məsləhətləri ilə hərəkət etməsi Əhməd Şaraanın on il əvvəlki imicinin dəyişməsində xüsusi rol oynayıb. Nəzərə almaq lazımdır ki, 2024-cü il noyabrın 27-dən fəal hərəkata başlayan Əhməd Şaraanın rəhbərlik etdiyi "Heyət Təhrir əl-Şam" müxalif silahlı qruplaşması cəmi 12 gün ərzində paytaxt Dəməşqi Bəşər Əsəd rejimindən təmizlədi. Bundan sonra Bəşər Əsədin ailəsi ilə birgə Rusiyaya qaçmalı oldu. Bununla da Suriyada Bəəss partiyasının 61 illik hakimiyyətinə son qoyuldu. Suriyada yeni hakimiyyət quran "Heyət Təhrir əl-Şam" (HTŞ) təşkilatının lideri Əbu Məhəmməd Colanini sələfi cihadçı təşkilat olaraq tanılırdı. Bu təşkilat 2017-ci il yanvarın 28-də "Cəbhə Fəth əl-Şam" (əvvəllər "ən-Nusra Cəbhəsi" kimi tanınırdı), "Ənsaruddin Cəbhəsi", "Ceyş əl-Sünnə", "Liva Əl-Haq", "Nurəddin Zengi Hərəkatı"nın birləşməsindən yaranıb. O dövrdə bir sıra ölkələr, o cümlədən ABŞ, Kanada, Böyük Britaniya və digər ölkələr Heyət Təhrir əl-Şam"ı terror təşkilatı kimi tanıyırdı. İddialara görə, "Heyət Təhrir əl-Şam"ın özəyini "Əl-Qaidə" ilə əlaqəli "ən-Nusra Cəbhəsi" təşkil edir. Təşkilatın lideri Əbu Məhəmməd Colaninin 1979-cu ildə Suriyada doğulduğu bildirilir. Məlumatlara görə, Colani ixtisasca ərəb dili müəllimidir. Colani 2003-cü ildən sonrakı dönəmdə İraqdakı silahlı qrupların tərkibində ABŞ qoşunlarına qarşı vuruşub. 2006-cı ildəki döyüşlərin birində onun ABŞ ordusuna əsir düşdüyü, sonradan isə əsirlikdən qaçdığı barədə məlumatlar var. ABŞ-ın əsirlikdən qaça bilən Colaninin tutulması üçün 10 milyon dollar mükafat vəd edib. Maraqlıdır ki, BMT-nin 80 illiyi ilə bağlı ABŞ-da keçirilən tədbirlərə Əhməd Şarada qatılmışdı. O zaman Əhməd Şaranı həbs edən ABŞ kəşfiyyatının keçmiş rəhbəri plenar iclasda Əhməd Şaraa ilə üz-üzə gəlmiş və ona hörmətinin olduğunu bildirmişdir.

Bütün bunlar onu deməyə əsas verir ki, Suriya dövləti və xalqı üçün yeni dövr başlayır. Hansı ki, bu dövr Suriyaya iqtisadi tərəqqi, siyasi, ictimai sabitlik, beynəlxalq arenada yüksək nüfuz və hörmət vəd edir.

***İLHAM ƏLİYEV***

# Şuşa Şəhəri Günü: Azərbaycan qürurunun, mədəniyyətinin və zəfərinin simvolu

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!

***Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev***



***Mehdi MEHDİYEV,***
***"Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin sədri***

Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş 8 Noyabr tarixi - Zəfər Günü kimi - eyni zamanda Şuşa şəhərinin azad olunduğu və milli qürurumuzun bərpa olunduğu gündür. 2023-cü ildə Prezident cənab İlham Əliyevin imzaladığı Sərəncamla 8 noyabr "Şuşa şəhəri günü" kimi də qeyd olunmağa başlanmışdır. Bu qərar təkcə tarixi qələbənin rəmzi deyil, həm də Azərbaycan xalqının mədəni kimliyinin, mənəvi dirçəlişinin və dövlət müstəqilliyinin təntənəsidir.

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!" - bu sözlər Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin 8 noyabr 2020-ci ildə söylədiyi və hər bir azərbaycanlının qəlbində qürur hissi oyadan tarixi bəyanat kimi yadda qalıb. Şuşanın azad edilməsi ilə Azərbaycanın suverenliyi tam bərpa olunmuş, ölkəmizin ərazi bütövlüyü uğrunda 30 il davam edən mübarizə öz müdrik və ədalətli sonluğunu tapmışdır.

Qarabağ Zəfərinin ən uca nöqtəsi 2020-ci il noyabrın 8-də baş vermiş Şuşa əməliyyatı oldu. Azərbaycanın qəhrəman əsgərləri və zabitləri sıldırım qayalardan, meşələrdən keçərək Şuşa şəhərinə daxil oldu və onu düşməndən azad etdilər. Bu əməliyyat həm hərbi strategiyanın, həm də xalqın birliyinin təntənəsi idi.

Prezident cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, "Şuşasız bizim işimiz yarımçıq qalardı". Bu, yalnız strateji hədəf deyil, həm də mənəvi borc idi - Ulu Öndər Heydər Əliyevin arzusu və vəsiyyəti idi. Prezident cənab İlham Əliyev atasının başladığı işi uğurla başa çatdıraraq Azərbaycan tarixində əbədi olaraq Müzəffər Ali Baş Komandan kimi öz yerini aldı. Şuşanın azadlığı ilə ədalət bərqərar oldu, Azərbaycanın əzəli torpaqları üzərində dövlət suverenliyi tam təmin edildi. Bu zəfərin nəticəsində Ermənistanın işğalçı siyasətinə son qoyuldu və beynəlxalq hüququn prinsipləri bərpa edildi.

İşğaldan azad edildiyi gündən etibarən Şuşada bərpa-quruculuq işləri misilsiz miqyasda həyata keçirilir. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə şəhərin infrastrukturunun yenidən qurulması, tarixi abidələrin bərpası və müasir sosial obyektlərin tikintisi böyük vüsət alıb. Bu illər ərzində Şuşada yollar, körpülər, məktəblər, xəstəxanalar, mehmanxanalar, mədəniyyət və turizm obyektləri inşa olunmuşdur. Xüsusilə, "Zəfər Yolu" - igid əsgərlərimizin Şuşaya çatdığı tarixi cığırın yerində salınmış avtomobil yolu - həm zəfərin, həm də bərpa prosesinin simvoluna çevrilmişdir.

Prezidentin 2024-cü il oktyabrın 21-də təsdiqlədiyi "Şuşa şəhərinin 2040-cı ilədək Baş planı" şəhərin gələcək inkişafını sistemli şəkildə təmin edəcək sənəddir. Bu plan tarixi simanın qorunması ilə müasir şəhərsalma




prinsiplərinin və ekoloji balansın vəhdətini əks etdirir. Şuşa şəhəri əsrlər boyu Azərbaycanın mədəniyyət beşiyi kimi tanınıb. Burada Üzeyir Hacıbəyli, Bülbül, Xurşidbanu Natəvan kimi dahilər yetişmiş, Şərqin musiqi və ədəbiyyat tarixində unikal iz buraxmışlar. 2021-ci ildə Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş, elə həmin ilin mayında qəbul edilən qanunla bu status hüquqi təsbitini tapmışdır. Bu mühüm qərar Şuşanın həm milli, həm də beynəlxalq miqyasda tanıdılmasına böyük təkan verdi. Ardınca 2022-ci ildə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı", 2024-cü ildə isə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. 2026-cı ildə isə şəhər İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı olacaq. Bu titullar Şuşanın artıq regional deyil, qlobal mədəniyyət mərkəzinə çevrildiyini təsdiqləyir.

Şuşa həm də Azərbaycanın diplomatik və siyasi həmrəyliyinin rəmzidir. 2021-ci il iyunun 15-də burada Azərbaycan və Türkiyə prezidentləri arasında "Şuşa Bəyannaməsi" imzalanmışdır. Bu sənəd iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərini yeni mərhələyə yüksəltmiş, regionda sülh və sabitliyin əsas təminatına çevrilmişdir. Sonrakı illərdə Şuşa beynəlxalq tədbirlərin, konfransların və zirvə görüşlərinin mərkəzinə çevrildi. Burada Türk Dövlətləri Təşkilatının Zirvə görüşü, İSESCO-nun, TÜRKSOY-un və digər nüfuzlu qurumların tədbirləri keçirildi. Şuşa artıq diplomatik dialoqun və mədəniyyətin qovuşduğu bir məkandır.

Şuşanın azad edilməsindən sonra şəhərin bərpası istiqamətində aparılan işlər həm dövlət, həm də Heydər Əliyev Fondunun dəstəyi ilə geniş vüsət almışdır. Molla Pənah Vaqifin muzey-məqbərəsi, Natəvanın sarayı, Üzeyir Hacıbəylinin və Bülbülün ev-muzeyləri, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı və Mamayı məscidləri, Mehmandarovların malikanəsi kimi abidələr bərpa edilərək əvvəlki əzəmətinə qovuşdurulmuşdur.

Hər bir açılış mərasimində Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəxsən iştirak etmiş, bu işlərin həm dövlət, həm də milli mənəviyyat baxımından əhəmiyyətini vurğulamışdır.

Bu gün Şuşada keçirilən "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri, Qlobal Media Forumu kimi tədbirlər şəhərin mədəni dirçəlişinin real göstəricisidir.

Şuşa bu gün Azərbaycanın yeni inkişaf fəlsəfəsinin təcəssümüdür. Şəhər artıq təkcə Qarabağın deyil, bütün türk və islam dünyasının mənəvi paytaxtına çevrilib. Burada həyata keçirilən layihələr dövlətimizin gücünü, xalqın iradəsini və birliyini nümayiş etdirir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin sözləri ilə desək: "Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq!"

8 Noyabr - Şuşa şəhəri günü yalnız bir tarix deyil, həm də Azərbaycan xalqının milli kimliyinin, döyüş əzminin, mədəni irsinin və yenilməz ruhunun simvoludur.Şuşa həm tarixin yaddaşı, həm də gələcəyin bələdçisidir. Burada atılan hər addım, salınan hər bina, ucaldılan hər abidə Azərbaycan xalqının azadlıq, suverenlik və müstəqillik ideallarının canlı təzahürüdür.

Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə Şuşa bu gün Azərbaycanın qürur qalası, türk birliyinin simvolu və mədəniyyətin parlayan incisi kimi yenidən doğulur.



Elçin Bayramlı

## Ailə cinayətləri niyə artır: xəyanət, psixi problem, yoxsa..?

***Son vaxtlar ailədaxili münaqişələr və qətllər artmaqdadır. Namus cinayətlərindən tutmuş əmlak davalarınadək, psixi xəstələrin zorakılığından tutmuş, ciddi səbəb olmadan baş verən davalaradək. Bütün bunlar cəmiyyətimizdə bu sahədə vəziyyətin getdikcə gərginləşdiyini göstərir. Bunun çoxsaylı səbəbləri var ki, bu yazımızda əsaslarını nəzərdən keçirəcəyik.***

Burada əxlaqi dəyərlərin pozulması, mənə deqradasiya uğrama ən əsas və ən böyük səbəbdir. Lakin çox sayda digər faktorların da rolu var. Əlbəttə, heç bir halda qətl və zorakılığa bəraət qazandırmaq olmaz. Lakin hadisəyə hüquqi və sosial kontekstdən baxanda müəyyən vəziyyətlərə uyğun yanaşma formalaşdırmaq mümkündür.

Bəzi hallarda qətlər xəyanətə görə baş verir. Bu həmin cinayətlər üçün ən ciddi səbəbdir və bu səbəb aradan qaldırılmalıdır. Qadın və ya kişi ailə münasibətlərində xəyanət yolunu seçirsə, bunun mənəvi və sosial baxımdan çox ağır nəticələri ola biləcəyini bilməlidir. Ailənin öz qaydaları, qanunları və öhdəlikləri var. Əgər kimsə başqa cür yaşamaq istəyirsə, boşanıb gedib öz işi ilə məşğul olmalıdır.

İndi müasirlik adı altında bəziləri hər istədiyini edir. bu da çox ağır nəticələrə gətirib çıxarır. Başqa çox saylı səbəblər də var. Məsələn, ailəyə kənar müdaxilələr, şantaj, sosial və iqtisadi problemlər, psixi xəstəliklər, narkotik və alkoqol asılılığı və s. Ümumiyyətlə, insanlar bir-biri ilə münasibətlərdə gərək əvvəlcədən düşüncəli şəkildə hərəkət etsinlər. Hətta daha da uzaqdan başlamaq lazımdır- ailə quranda normal və sağlam insan seçilməlidir və bu seçim maddi yox, mənəvi dəyərlər üzərində qurulmalıdır.

Bu kimi cinayətlərin bir hissəsi də psixi xəstəliklər fonunda baş verir. Belə şəxslər bəzən heç bir səbəb olmadan da zorakı davranışlara meyilli olurlar. Bu cür halların qarşısını almaq üçün vaxtında tibbi nəzarət və müalicə təmin olunmalıdır.

Təəssüf ki, hazırda bir çox psixi xəstələr dispanserlərə yerləşdirilmir və nəzarətsiz şəkildə ortalıqda gəzir. Təbii ki, bu insanlar gec-tez müəyyən cinayətlər törədə bilirlər. Bu gün psixi dispanserlər hətta müraciət edən ağır xəstələri belə qəbul etmirlər.

Ya ciddi səbəbdən, ya heç bir səbəb olmadan bu cür hadisələr baş verir. Özü də, bu kimi cinayətlər mediada hay-həşir qoparıldığı kimi, təkcə kişilər tərəfindən qadınlara qarşı törədilmir, bir sıra hallarda qadınlar tərəfindən kişilərə qarşı törədilir. Məsələn, bu yaxınlarda belə bir xəbər yayıldı ki, qadın öz məşuqu ilə əlbir olub ərini öldürüb və öz həyətində basdırıb. Təəsüf ki, buna bənzər hadisələrə də az rast gəlinmir.

Ümumiyyətlə, son vaxtlar ərli, ailəli qadınların xəyanət halları, əxlaqsızlıq halları xeyli çoxalıb. Bu da son nəticədə namus cinayətlərinin artmasına gətirib çıxarır. Problemin həlli üçün nəticələrlə uğraşmaq yox, səbəbi aradan qaldırmaqdır.

Hər bir halda, bütün bunlar əsasən mənəvi deqradasiyanın nəticəsidir. Digər əsas səbəb psixi problemlərin kəskinləşməsinin nəticəsidir. Əksər hallarda bu insanlar ya psixi xəstədilər, ya da konkret əxlaqsızlıqla məşğuldular.

Yəni, bu kimi cinayətlərin 90 faizini bu iki səbəb, qalan 10 faizini isə digər səbəblər təşkil edir. Ona görə də, insanlar ailə qurarkən yalnız maddi yox, mənəvi cəhətdən sağlam və düşüncəli insanlarla evlənməyə üstünlük verməlidirlər.

Lakin son vaxtlar ailə qurulmasındakı meyar tamam dəyişib, 99 faiz hallarda həyat yoldaşı seçilərkən mənəvi yox, maddi kriteriyalar əsas götürülür. Bu da özünü boşanmalar üzrə rekord göstəricilərdə, həmçinin ailədaxili cinayətlərdə göstərir. İstənilən halda mənəvi dəyərlər baxımından deqradasiyaya uğramışıq deyə bu hallar çoxalır:

Əvvəllər bizdə bu cür hadisələr çox nadir hallarda baş verirdi. Son vaxtlar "azadlıq", "müasirlik" adı altında insanların psixologiyası dəyişib. Bundan əlavə insanlarda stress, psixoloji yüklənmə artıb. Bu da bu kimi faciələrə gətirib çıxardır.

Ümumilikdə, ailədaxili cinayətlərin artması həm mənəvi dəyərlərin zəifləməsi, həm də sosial və psixoloji gərginliyin yüksəlməsi ilə əlaqədardır. İnsanlarda stressin, işsizlik və sosial təzyiqlərin artması, narkomaniya və alkoqolizm kimi problemlərin çoxalması da bu halları stimullaşdırır.

Biz öz milli-mənəvi dəyərlərimizi qorumalı və ailə sistemimizi qoruyub saxlamalıyıq. Düzgün və sağlam ailə qurulduqda, münasibətlər də sağlam olur və heç bir problem baş vermir.

*Hansı ki, 5 ildir, gözləyirik. 2020-ci ilin 44 günlük Vətən müharibəsi bitər-bitməz gözümüz yolda, qulağımız səsdə qaldı ki, bu gün-sabah sanballı bir film çəkilər, izləyərik. Çünki böyük, həm də bütün dünyaya səs salan hadisə baş vermişdi. Azərbaycan ordusu 30 il işğal altında qalan torpaqlarımızı erməni işğalından azad etmişdi. 44 günün hər biri bir dastan mövzusu olmuşdu. Bütün dünya əsgər və zabitlərimizin şücaətindən danışırdı, dövlətimizin, ordumuzun gücünü seyr edirdi. Onların qəhrəmanlığı, igidliyi qarış-qarış yenidən fəth etdikləri Qarabağın azadlıq nəğməsinə çevrilmiş, lakin igidlərin əksəriyyəti bu azadlığın dadını dadmadan, o nəğməni dinləmədən şəhid olmuşdu. Minlərlə igidimiz canını qurban verdiyi Vətəninin bütövlüyü uğrunda sağlamlığını itirib qazi olmuşdu ki, həmin qazilərin hər biri ordumuzun keçdiyi döyüş yolunun canlı şahididir.*

# Azərbaycan kinosu: il başa çatır, 5 milyon hələ də gözləyir...







Müharibə iştirakçılarının hər dəfə Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşanın düşməndən azad edilməsi ilə bağlı söhbətlərini dinlədikcə, xəyalında bir film canlanır. Düşünürsən ki, bu filmi televiziya ekranlarından izləmək necə də gözəl olardı. Lakin ötən 5 il ərzində şəhid-qazilərimizin igidliyini, ordumuzun gücünü, dövlətimizin iradə və əzmini ortaya qoyan sanballı bir film izləyə bildikmi? Təəssüf ki, hələ izləyə bilməmişik. Çəkilib filmlər, yoxdur deyə bilmərik. Lakin ölkəyə səs salan, insanların bir-birinə "baxmısan o filmə?" sualını verəcək film yoxdur hələ.

"Bu il Kino Agentliyinə 8,5 milyon manat həcmində vəsait ayrılıb. Artıq noyabrın 12-sidir. İndiyə qədər həmin vəsaitin cəmi 41 faizi istifadə olunub və 5 milyon istifadə olunmamış qalıq var. Nəzərə almaq lazımdır ki, bu ilin əvvəlinə həmin qurumun 11,5 milyon manat istifadə olunmamış vəsaiti var. Buna görə həmin qurum əlində olan vəsaitin növbəti il üçün xərcləri ödəməyə kifayət edəcəyini düşünürük".

Maliyyə nazirinin müavini Himalay Məmişovun gələn ilin büdcəsinin müzakirəsi zamanı deputatların suallarını cavablandırarkən dediyi bu fikirlərlə tanış olandan sonra başqa mövzu, janrlarla bağlı deyil, Zəfərimizin 5 illik yubileyi ilə əlaqədar yenidən Azərbaycan kinosunu səsləməli olduq: haradasan, Azərbaycan kinosu? Haradasan, axı tamaşaçı səndən filmlər gözləyir. Axı bu böyük tarixin yaşadılmasında geçikirsən. Axı müharibə bitəndən sonra canlı şahidlərin xatirələri fonunda gözəl filmlər çəkmək olar, nəinki illər sonra. Elə bu səbəblərdən də Azərbaycan kinosundan danışaq bu gün. Onun dünən və bu gününə nəzər salaq, səsləyək, bəlkə kinomuz bu çağırışdan oyanar, bizə həsrətlə gözlədiyimiz filmləri təqdim edə bilər...

## Hanı o filmlər?..

Azərbaycan kinosu həqiqətən də vaxtilə öz sözünü deyə, tamaşaçı rəğbətini qazana bilmişdi. İnsanlara gözəl duyğular bəxş etməklə, əxlaqi, milli-mənəvi dəyərlərimizi qorumaqla, xalqımıza məxsus qəhrəmanlıq səhifələrini özündə əks etdirməklə, ailə-məişət mövzularına nümunəvi şəkildə toxunmaqla Azərbaycan kinosu elə filmlər istehsal etmişdi ki, baxmaqla doymaq olmurdu. Elə indinin özündə də həmin filmlərin hər birinə sevə-sevə tamaşa edirik. Hələ bəzən özümüzə belə sual da veririk ki, bu filmlərdən nə üçün doymaq olmur? Hər dəfə baxanda sanki ilk dəfədir, baxırmışsan kimi gəlir adama.

Bizim "Dədə Qorqud" adlı filmimiz var. Bu qədim xalqın qəhrəmanlıq səhifələri, milli-mənəvi keyfiyyətləri, adət-ənənələri ilə dolu bir filmdir. 1975-ci ildə "Kitabi Dədə Qorqud" dastanının motivləri, yazıçı Anarın eyniadlı povesti əsasında çəkilmişdir. Aradan 50 ilə yaxın dövr keçsə də, bu film öz dəyərini əsla itirmir. Baxdıqca baxılır.

Bizim "Babək" adlı filmimiz var. 1979-cu ildə çəkilən filmdə xalqımızın qəhrəman oğlu, görkəmli sərkərdə və siyasi xadim Babəkin azadlıq hərəkatından bəhs olunur. Aradan 45 ildən artıq zaman keçməsinə baxmayaraq bu filmi hər dəfə böyük şövq və qürurla işləyirik.

Bizim "Yeddi oğul istərəm" adlı filmimiz var. 1970-ci ildə xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında çəkilmiş film Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 50 illiyinə ithaf olunsa da, həmin 50 ildə sovet imperiyasının təsiri altında yaşasaq da, lakin o, film olaraq çox sanballı və yaddaqalandır. Odur ki, baxmayaraq ki, indi müstəqil ölkədə yaşayırıq, lakin o film bizim üçün yenə eyni dəyərdə qalmaqdadır.

Bizim "Axırıncı aşırım" kimi filmimiz var. 1971-ci ildə ekranlaşdırılmış kino əsərindəki dramatik hadisələr Azərbaycanın dağ kəndlərinin birində sovet hakimiyyəti qurulduğu ilk illərdə baş verir. Bu film də yaşadığımız sovet hakimiyyəti illərini əsas mövzu etsə də, lakin o tarix bizim yaşadığımız tarixdir. Və film o qədər heyrətamiz şəkildə ekranlaşdırılıb ki, bu gün də hər birimiz o filmdən sitat gətiririk. Hər birimiz o filmi illər öncəki maraqla, həvəslə, sevgi ilə izləyirik. Hansı ki, aradan yarım əsrdən artıq zaman keçib.

"Bəxtiyar", "Arşin mal alan", "O olmasın, bu olsun", "Qayınana", "Əhməd haradadır", "Ulduz", "Yenilməz batalyon", "Bizim Cəbiş müəllim" və adlarını çəkmədiyimiz onlarla film var ki, aradan 50 ildən artıq vaxt keçməsinə baxmayaraq bu gün də fəxr etdiyimiz Azərbaycan kino sənətinin nümunələridir. Bəs belə isə bu gün haradadır Azərbaycan kinosu? Nə üçün bu siyahını davam etdirə bilmirik. Yəni belə sanballı filmlərlə davam etdirə bilmirik...

Bu gün Azərbaycan televiziya məkanında yağışdan sonra çoxalan göbələk qədər teleseriallar görmək mümkündür. Hansı kanala baxırsansa, orada bir serialla qarşılaşırsan. Bunların arasında isə təsadüf nəticəsində yaxşı biri ilə qarşılaşmaq mümkündür.

Azərbaycan kino məkanında komediya filmləri daha çox çəkilir. Və qeyd etməliyik ki, həm də çox maraqlı, professional səviyyədə çəkilir. Komediyanın həyatın acı hadisələrini gülüşlə ifadə etməsini, bunun da tamaşaçıya təsir gücünü nəzərə alsaq, əlbəttə komediya filmlərimizə söz yoxdur. Lakin həddindən artıq gülmürükmü? Bəlkə bir qədər də təsirlənməyin, duyğulanmağın, tarixin yaddaşına atılmağın, qədirbilənliyin vaxtıdır...

Komediyadan fərqli olaraq bədii, sənədli, televiziya filmləri haqqında danışmaq bir qədər çətindir. Çünki tamaşaçı hələ də gözləyir. İkinci Vətən müharibəsindən, şəhidlərimizdən, müharibə iştirakçılarından, azad torpaqlarımızdan, bu torpaqların böyük hünər və rəşadətlə geri alınmasından, erməni adlı düşmənin rəzilliyindən, Qarabağın başına gətirdiyi oyunlardan, darmadağın yurdlardan, daşınıb aparılmış sərvətlərdən, minlərlə soydaşımızın 30 illik məcburi köçkün həyatından və Böyük Zəfərdən bəhs edən filmlər gözləyirik.

## "Uzaq sahillərdə"n Qarabağımıza...

Bir filmə baxmaq istərdik... Sovet dövründə azərbaycanlı Mehdi Hüseynzadənin İkinci Dünya müharibəsində qəhrəmanlığını əks etdirən "Uzaq sahillərdə" filminə bənzəsin. Tamaşa edəndən günlər sonra təsirindən çıxa bilmədiyimiz "Uzaq sahillərdə"yə. Mehdinin zəkası, savadı, bacarığı, qabiliyyətini, Vətən sevgisini əks etdirən film kimi İkinci Qarabağ müharibəsinin qəhrəmanları haqqında filmlərə baxmaq istərdik. Niyə də baxmayaq ki? Niyə biz "Uzaq sahillərdə"n Qarabağımıza gələ bilməyək? Axı uzaq sahilləri bizə zorla Vətən etmişdilər. Biz öz sahillərimizdən uzaqlara Vətənimizi qorumağa getsək də, ümumi "Vətənimiz" üçün idi bütün bunlar. 70 illik "Vətənimiz". Qəlbimizdə öz Vətənimiz, dilimizdə o "Vətənimiz". O "Vətən" uğrunda gedən döyüşlər haqqında bizim neçə-neçə bədii filmlərimiz var. Hamısı da ayrı-ayrılıqda təsiretmə gücünə malik. Yəni o filmlərin ssenarisini yazanlar, rejissorluğunu edənlər bizlər deyildik?..

Bir bədii film izləmək istərdik. Generalımız Polad Həşimovun vətənpərvərlik rəmzi olmasından, hər biri bir mövzu olan şəhidlərimizdən, itkinlərimizdən, onların Mehdi Hüseynzadə kimi şücaətindən, təhsilindən, vətənpərvərliyindən, cəsarətindən, yarımçıq ömründən bəhs edən film. Birinci Qarabağ müharibəsində şəhid olmuş ataların İkinci Qarabağ müharibəsində şəhid övladlarından, nəvələrindən, yaxın qohumlarından bəhs edən bir film. Tarixi tarixə bağlayan, faktlar toplusu olan bir film.

Bir film izləmək istərdik. Xüsusi təyinatlılarımızın Şuşaya sinələri, əlləri, dizləri ilə açdıqları yoldan, bu dağların sinəsinə pərçim şəhərin asad edilməsindən, o cəngavərlərin hünərindən, silahla yox, əlbəyaxa döyüşündən bəhs edən film.

Hansısa bir yazıçının cəsarət edib yaza biləcəyi, hansısa bir rejissorun ürək edib çəkə biləcəyi müzəffər sərkərdə, Ali Baş Komandandan bəhs edən bir filmə baxmaq istərdik. O filmə ki, torpaqlarımızın qayıtmasını reallaşdıran şəxsiyyətdən, ata nəsihətini həyata keçirən övladdan, yurd həsrətli insanların bağlı qapılarını açan rəhbərdən bəhs etsin.

Bu qədər vəsait ayrılır Kino Agentliyinə. Ötən il xərclənmir, bu ilə qalır, builki gələn ilə qalır. Niyə xərcləmirsiniz bu vəsaiti? Nə üçün bu vəsaitə gözəl, yaddaqalan, tarixin bir səhifəsi olacaq filmlər çəkə bilmirsiniz? Nədir probleminiz, nədir dərdiniz? Kimin belə Zəferi olsaydı, indi dünyaya səs salan filmlər çəkmişdi axı  Belə isə haradasan, Azərbaycan kinosu? Biz səni gəzləyirik axı...

***Mətanət Məmmədova***

# Kiçik Trampın "ata yolu"

## *Oğul Trampın İrəvan səfəri və Koçaryanın etirafı*

***ABŞ prezidenti Donald Trampın kiçik oğlunun İrəvana səfərinin əsas mövzusu Azərbaycanın əsas hissəsinin Naxçıvanla birləşdirilməsi üçün nəzərdə tutulan "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu" layihəsinin Ermənistan hissəsinin tikintisi olacaq. Regional medianın xəbər verdiyi kimi, kiçik Trampın səfəri, ailə biznesi olan The Trump Organization-u Mərkəzi Asiya və Avropa arasında Orta Dəhlizdə inteqrasiya olunmuş multimodal mərkəz yaratmaq layihəsinə çevirməyə çalışan Prezident Trampın inkişaf diplomatiyasını davam etdirəcək.***

Prezident Trampın oğlunun İrəvana gözlənilən səfəri rəsmi şəkildə şərh edilməsə də, danışıqların təfərrüatları və gündəliyi barədə öz mənbələrinə istinadən Ermənistan və Azərbaycan mediasında artıq geniş müzakirə olunur. Ermənistanın "Paste" qəzeti səfərin təşkilatçısı kimi Ermənistanın ABŞ-dakı yeni səfiri, keçmiş əmək və sosial məsələlər naziri Narek Mkrtçyanın adını çəkir. Sentyabrda Vaşinqtona gəldikdən sonra o, ABŞ-Ermənistan əlaqələrini gücləndirmək ambisiyasını bəyan edib.

47 yaşlı kiçik Donald Trampın baş nazir Paşinyanla görüşüb-görüşməyəcəyi hələ də qeyri-müəyyən olaraq qalır. Eyni zamanda, İrəvan və Bakıdakı mənbələr bu səfərin









Tramp ailəsinin prezident Trampın avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycan liderləri ilə görüşündən sonra yaranmış yeni biznes maraqları ilə bağlı olduğunu qeyd edirlər. Ağ Evdə keçirilən üçtərəfli danışıqlardan sonra tərəflər Bakı ilə İrəvan arasında sülh yolu ilə nizamlanma və Ermənistan vasitəsilə Azərbaycanın materik hissəsi ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin yaradılması haqqında bəyannamə imzalayıblar. "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) adlandırılan layihənin məqsədi Azərbaycan və onun Naxçıvan eksklavı arasında nəqliyyat əlaqələrindəki problemləri aradan qaldırmaqdır.

Baş nazir Paşinyanın avqustun 9-da Vaşinqtonda elan etdiyi kimi, "Tramp marşrutu" İranla həmsərhəd dəmir yolu xətti ilə İrəvanla Bakı arasında neft və qaz kəmərlərinin, elektrik xətlərinin, internet kabellərinin və dəmir yolunun tikintisini nəzərdə tutur. Sovet dövründə çəkilmiş dəmir yolu xətti Ermənistanın cənubundakı Meğri şəhəri də daxil olmaqla, Araz çayının şimal sahili ilə keçir. Lakin 1990-cı illərin əvvəllərində Qarabağdakı silahlı münaqişə səbəbindən dəmir yolunun təxminən 45 kilometrlik Meğri hissəsində xidmət dayandırılıb.

Vaşinqtonda keçirilən üçtərəfli görüşdən az sonra ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə bürosunun direktoru Brendan Hanrahan İrəvana səfər edib. Ermənistan baş nazirinin müavini



Mher Qriqoryanla görüşündə Hanrahan Vaşinqtonun "Tramp marşrutu" layihəsini maliyyələşdirməyə başlamaq qərarını açıqlayıb.

Sentyabrın 11-də bölgəyə səfər edən ABŞ diplomatı Yervana bölgədəki vəziyyətlə bağlı bildirib: "Mən məmnuniyyətlə bildirmək istəyirəm ki, biz ABŞ Konqresi ilə əməkdaşlıq edərək Ermənistana 145 milyon dollar yardım göstərmək niyyətindəyik. Bu, TRIPP layihəsinin və avqustun 8-də ticarət, infrastruktur, kritik mineral tədarük zəncirləri və transsərhəd təhlükəsizliyə sərmayələrin dəstəklənməsi ilə əldə edilmiş razılaşmaların həyata keçirilməsinə yönəlmiş ilk maliyyə transıdır".

İrəvandakı ekspertlər qeyd edirlər ki, TRIPP layihəsi uğurla həyata keçirilərsə, o, təkcə Azərbaycan və Naxçıvan arasında nəqliyyat marşrutu deyil, Mərkəzi Asiya ilə Avropa arasında Orta Dəhlizə inteqrasiya olunmuş multimodal qovşaq yarada bilər. Podratçılarla danışıqlar oktyabr ayında başlayıb və layihə artıq infrastrukturun inkişafı üzrə işçi qrupunun və konsorsiumun formalaşdırılması mərhələsinə daxil olub.

Qeyd edək ki, kiçik Donald Trampın İrəvana gözlənilən səfərini birbaşa qeyd etmədən baş nazir Paşinyan keçən həftə TRIPP layihəsi çərçivəsində regionda kommunikasiyaların bloklanmasında ABŞ-ın iştirakının ölkəsi üçün artan əhəmiyyətini təsdiqləyib. "Biz hazırda amerikalı tərəfdaşlarımızla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək dəmir yolunun tikintisini müzakirə edirik. Niyə ABŞ? Çünki bu, TRIPP layihəsinin tərkib hissəsidir", - Nikol Paşinyan noyabrın 4-də bəyan edib.

Ehtimal edilir ki, Ermənistanın cənubundakı Zəngəzur (ermənicə Sünik) rayonundan keçəcək 42 kilometrlik nəqliyyat dəhlizi layihəsinin icrası zamanı İrəvanın onun üzərində suverenlik qalacağı, lakin müvafiq lisenziyanı almış özəl Amerika şirkəti dəhlizi 99 illik icarə əsasında işləyəcək. Layihənin Donald Tramp adını daşıdığını nəzərə alsaq, onun oğlunun TRIPP-ə təkcə sülhməramlı deyil, həm də real iqtisadi mahiyyət vermək üçün İrəvana səfər etməsi simvolikdir.

Xatırladaq ki, kiçik Tramp bacısı İvanka və qardaşı Erik ilə birlikdə "The Trump Organization"-da icraçı vitse-prezident vəzifəsində çalışır. Regional medianın məlumatına görə, Tramp ailəsi klasterinə daxil olan bir şirkətin 99 illik müqaviləyə əsasən Meğri seqmentinin əsas icarəçisi olacağı gözlənilir. Bu baxımdan, kiçik Trampın İrəvana səfərinin gündəliyində duran əsas məsələlərdən birinin Tramp marşrutunun tikintisində Amerika biznesinin iştirakının qanuni şəkildə rəsmiləşdirilməsi və sonradan bu nəqliyyat arteriyasının idarə olunması olacağı gözlənilir.

Tramp marşrutunun erməni hissəsinin həyata keçirilməsində Rusiyanın mümkün iştirakı məsələsi açıq qalır. Oktyabrın sonunda Ermənistan parlamentində büdcə dinləmələrində çıxış edən Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Tramp marşrutu üzrə əməkdaşlığın Rusiya tərəfi ilə müzakirə edilib-edilməməsi ilə bağlı suala belə cavab verib: "Biz rusiyalı tərəfdaşlarımızla yeni maraqlı mexanizmlər, sahələr və sair müzakirələr aparmışıq, müzakirə edirik və bundan sonra da imkanlarımız olacaq". Bununla belə, o, "Tramp marşrutu"nun Ermənistan hissəsinin Rusiya Dəmir Yollarının törəmə şirkəti olan Cənubi Qafqaz Dəmir Yollarının (CQDY) konsessiya idarəçiliyinə verilməsi ehtimalını da istisna edib.

***Ardı Səh. 11***

# Kiçik Trampın “ata yolu”

## *Oğul Trampın İrəvan səfəri və Koçaryanın etirafı*







Əvvəli Səh. 10

Xatırladaq ki, 2008-ci ilin fevralında Ermənistanın dəmir yolu infrastrukturu daha 10 il uzatmaq hüququ ilə 30 illiyinə Rusiyaya verilib. ”Ermənistanda mövcud olan, fəaliyyət göstərən dəmir yolu infrastrukturu konsessiya idarəçiliyi üçün Rusiyaya verilib. Bayaq müzakirə etdiyimiz ”Tramp marşrutu” oraya daxil deyil. Əgər nəsə çatışmırsa, o, əvvəllər konsessiya idarəçiliyinə necə keçə bilərdi?”, Ararat Mirzoyan izah edib.

### Azərbaycan isə Zəfərini qeyd edir

Bakıda genişmiqyaslı hərbi parad keçirilib. İrəvandan və Ermənistanın fərqli yerlərindən bu hadisəyə fərqli baxışlar olub, fikirlər səsləndirilib. Bu barədə erməni mediası yazıb. Əlbəttə üstünlük qərəzin, təxribatın tərəfindədir. Ermənilər paradı təkcə bayram yox, yaxşı məşq edilmiş güc arxitekturasının nümayişi adlandırıblar. Parad meydançasında təkcə ənənəvi tanklar və zirehli texnikalar deyil, həm də son illərdə müasir münaqişələrin mahiyyətini kökündən dəyişdirən sistemlərin tam çeşidi nümayiş etdirilib: zərbə və kəşfiyyat pilotsuz təyyarələri, gəzinti sursatları, uzaqmənzilli taktiki raketlər, laylı hava hücumundan müdafiə vasitələri, müasir reaktiv yaylım atəşi sistemləri və avtomatlaşdırılmış atəşə dəstək sistemləri. Bütün bunlar sadəcə gözəl nümayiş deyil, hərbi strategiya və potensial hədəfləri aydın şəkildə əks etdirən prioritetləşdirmə siqnalıdır. Paradın nümayişi Azərbaycanın hazırda təkmilləşdirdiyi döyüş modelinin bir-biri ilə əlaqəli bir neçə komponentini ortaya qoyur.

Birincisi, kəşfiyyata və hədəfin təyin edilməsinə diqqət yetirilir: taktiki və operativ PUA-ların, gəzən döyüş sursatlarının və uzunmüddətli müşahidə sistemlərinin kütləvi olması döyüş meydanını hədəfin aşkarlanması və məhv edilməsi arasındakı vaxtın minimal olduğu ”görünən” mühitə çevirir. İkincisi, taktiki raketlərdən tutmuş çoxsaylı raket sistemlərinə və modul dəqiqliklə idarə olunan sursatlara qədər dərindən dəqiq zərbələr endirmək imkanı var. Üçüncüsü, əsas obyektləri və logistik dəhlizləri qorumağa qadir olan çoxqatlı hava hücumundan müdafiə sisteminin yaradılmasıdır. Bu elementlər birlikdə manevr qabiliyyətinin, dayanıqlı zərbələrin və informasiya üstünlüyünün həlledici olacağı bir model yaradır.

Parad meydançasında nümayiş etdirilən xüsusi silahlar təsadüfi seçim deyildi: modernləşdirilmiş T-72/T-90 tankları, piyadaların döyüş maşınları, SandCat, Kobra və Vaşaq mobil zirehli texnikası, Tor-2M-dən S-300 və Barokko klassik sistemlərinə qədər inteqrasiya olunmuş hava hücumundan müdafiə sistemləri, Orbiter/Aerostar TB ailəsi, Bayittarçınq2 ailəsi, SkyStriker və digərləri - bütün bunlar Bakıya həm klassik formatda, həm də hava və uzaqdan zərbələrə diqqət yetirməklə hibrid müharibə aparmaqda çeviklik verir.

Paradda həmçinin 2S31 Vena, 2S7 Pion, TOS-1M və yüzlərlə kilometr məsafəni qət edən müasir çoxsaylı reaktiv yaylım atəşi sistemləri də daxil olmaqla artırılmış məsafə və idarə oluna bilən artilleriya nümayiş etdirilib. Bu silahlar təkcə atəş gücünü artırmır, həm də döyüşün həndəsəsini və düşmən infrastrukturunun dərinliklərinə təsir etmək qabiliyyətini dəyişir.

Əldə edilmiş və nümayiş etdirilən sistemlərin xarakterini və çeşidini nəzərə alsaq, aşkar olanı nəzərdən qaçırmaq olmaz: bu satınalmalar və təkmilləşdirmələr təkcə xarici tərəfdaşlara güc nümayişi və ya daxili konsolidasiya üçün lazım deyil. Onlar Azərbaycanın təhlükəsizliyinə birbaşa təsir edən problemləri, yəni hava hücumundan müdafiə sistemləri və infrastrukturunu sıradan çıxarmağa, sürətli irəliləyiş üçün ”dəhlizlər”in təmin edilməsinə və müdafiə imkanlarının boğulmasına qədər, aradan qaldırmaq üçündür.

Ermənistanın, xüsusilə revanşist kəsimi ictimai müzakirələrin ”əvvəlki hakimiyyətlə hesablaşmalar” müstəvisinə keçirmək cəhdlərindən narahat kimi görünürlər. Onlar təkid edirlər ki, Nikol Paşinyan və komandası ölkənin ”xarici təhdidlərin açıq-aşkar artması” ilə üzləşdiyi bir vaxtda daxili çəkişmələrə vaxt itirməkdənsə, diqqətini real təhlükələrə yönəltməlidir. Ermənistan cəmiyyəti isə parçalanır, təhdidlərə effektiv cavab vermək qabiliyyətini itirir, ordu zəifləyir, əməliyyat resursları azalır, diqqəti zəruri islahatlardan və səfərbərlik tədbirlərindən yayındırır. Bu, yüksək geosiyasi gərginlik zonasında yerləşən kiçik bir ölkənin ödəyə bilməyəcəyi lüksdür.

### Koçaryan Paşinyanın üç səhvinin adını çəkdi

Parlament seçkilərinə 7 ay qalıb. Paşinyana asi olanların əksəriyyətinin birləşəcəyi, kənar dəstəkçilərin də köməyindən istifadə edərək hakimiyyəti ələ keçirəcəkləri plan artıq sirr deyil. Son günlər Rusiyanın rəsmi İrəvana qarşı demarşları da diqqətlə izlənilir. Ukrayna ilə işğalçı savaş Moskva üçün nə qədər pis perspektiv vəd etsə də, Rusiyanın Cənubi Qafqazdan asanlıqla tərk etməyəcəyi də ortadadır. Kremlin hərəkətlərinə Ermənistandakı bəzi siyasi qüvvələr, xüsusilə də eks-preaidentlər Robert Koçaryan və Serj Sarkisyan dəstək vermək üçün marıqda yatıblar.

”Başlamadan təxminən bir il əvvəl müharibənin yaxınlaşdığını hiss etdim”. Bunu Ermənistanın ikinci prezidenti Robert Köçəryan noyabrın 9-da TV5-də yayımlanan müsahibəsində deyib. ”Mənə bir şey aydın idi: hər şey müharibəni qızışdırmaq üçün edilirdi. İlk növbədə, bu, Ermənistanın təşəbbüsü ilə danışıqlar prosesinin pozulması idi. Ermənistan danışıqlardan imtina etdi”.

Koçaryan əlavə edib ki, bütün danışıqlar prosesində ilk dəfə olaraq tərəflərdən biri təqdim olunan sənədi müzakirə etməkdən tamamilə imtina etdi: ”O, 2019-cu ilin yayında təqdim olundu. Bundan sonra Nikol Paşinyan bildirdi ki, biz sıfırdan başlayacağıq və Qarabağla danışıqlara icazə verəcəyik. 2019-cu ildə təqdim olunan sənəd, sadəcə olaraq, danışıqları rədd edərək, təxminən 30 il davam edən danışıqlar prosesini məhv etdi. Bu, Ermənistanın beynəlxalq ictimaiyyət və Minsk Qrupunun həmsədr ölkələri üçün bütün prosesdə uduzan tərəfə çevrilməsinə gətirib çıxardı.

Bəs Azərbaycan nə etməli idi? Müharibəyə hazırlaşmağa başlamalı idi. Əsas səbəb budur. Ermənistan Respublikasının baş nazirini nəyə sövq etdiyini bilmirəm. Mənim təəssüratım belə oldu ki, 2018-ci il inqilabından sonra onun qlobal bir fiqura çevrildiyini və belə addımları öhdəsinə götürə biləcəyini düşünərək xəyal qururlar. Daha sonra belə bir bəyanat gəldi: ”Qarabağ Ermənistandır, nöqtə”. Beləliklə, o, bütün ümidləri puç etdi. Danışıqlar olmayanda vəziyyətdən narazı qalan tərəflərdən biri müharibəyə hazırlaşmağa başlamalıdır. Müharibəyə başlamaq üçün Azərbaycan bu müharibədə qalib gəlmək şansını dəyərləndirməli idi. Azərbaycanı müharibəyə sövq edən daha bir mühüm hadisə baş verdi. 2018-ci ildən ordunun başına gələnlər - komandanlığı gözdən salmaq kampaniyası, bütün generalların soyğunçu olması iddiaları və s. ordunun kəskin zəifləməsinə səbəb olub. Başqa bir vəziyyət var idi - strateji müttəfiqlə münasibətlərin pisləşməsi və KTMT ilə birbaşa münaqişəyə girməsi”.

Köçəryanın fikrincə, bu üç hal birləşərək Azərbaycanın qərar qəbul etməsi üçün ideal şərait yaradıb. ”Son daş Ermənistanın şimalında sərhəd münaqişəsi oldu və bu münaqişə ikinci Sərdarapat səviyyəsinə yüksəldi. Ermənistanın şimalında baş verən bu hadisə Azərbaycanda kifayət qədər səs-küyə səbəb oldu. Ordunun hərəkətə keçməsi tələbi ilə genişmiqyaslı mitinqlər keçirildi. Danışıqlar prosesinin pozulması o demək idi ki, heç kim Azərbaycanı qınamadı, heç kim bizi dəstəkləmədi. Ordu zəiflədi, Azərbaycanın müharibədə qalib gəlmə ehtimalı xeyli artdı. Müttəfiqlərinizlə münasibətləri korladınız, ona görə də onların birbaşa müdaxiləsi ehtimalı da azalıb. Müharibəyə səbəb olmaq üçün qəsdən edilməsə, yalnız məsuliyyətsiz adam belə addımlar ata bilərdi”, - ikinci prezident vurğulayıb.

O əlavə edib ki, bu, ya geosiyasi məlumatsızlığın nəticəsidir, ya da Ermənistan rəhbəri agent olsaydı, atılan addımları atardı. ”Hakimiyyət dəyişikliyindən sonra əsl səbəblər bəlli olacaq. Köçəryan Nikol Paşinyanın vətənpərvər olduğu üçün ”Qarabağ Ermənistandır, nöqtə” bəyanatını verdiyini iddia edərək özünə haqq qazandıran zaman onun açıqlamasını fantaziya adlandırıb. ”Təsəvvür edin ki, xalqımız bu cür anlayışlara görə yüksək bədəl ödəyib”.

Beləliklə, Ermənistanın ikinci prezidenti də Azərbaycanın gücünü etiraf etməli olub. Bəli, bəhanələr də az deyil, Koçaryanın çıxışında. Amma fakt odur ki, Azərbaycan öz torpaqlarını erməni silahlı qüvvələrinin 30 illik işğalından azad edib. Bunun isə alternative yoxdur.

***V.VƏLİYEV***

# ABŞ-da yeni nüvə sınaqları başladı: qlobal nüvə gərginliyi artır

***Rusiyanın limitsiz uça bilən, atom elektrik stansiyası ilə təchiz olunmuş və nüvə bağlığı daşıya bilən "Burevestnik" qitələrarası raketinin və nüvə başlıqları daşıya bilən "Paseydon" pilotsuz sualtı aparatının sınaqlarından sonra, ABŞ da bu sahədə sınaqlar keçirib.***

Noyabrın 5-də ABŞ-ın nüvə başlığı daşıya bilən Minuteman III qitələrarası ballistik raketinin (ICBM) sınaq buraxılışı keçirdiyi açıqlandı. "Bu sınaq bizə ICBM sisteminin mövcud etibarlılığını, döyüş hazırlığını və dəqiqliyini qiymətləndirməyə imkan verdi. ABŞ Hərbi Dəniz Qüvvələrinin E-6B Mercury təyyarəsindən göyərtədəki buraxılış idarəetmə sistemindən istifadə edən pilotlar komandası buraxılışa başladı və ICBM qüvvələri üçün ehtiyat komanda və idarəetmə sistemi olan ALCS-in effektivliyini və davamlı mövcudluğunu yoxladı", - deyə ABŞ-ın rəsmi bəyanatında bildirilir. Elə həmin gün Vladimir Putin Rusiya Təhlükəsizlik Şurasının daimi üzvləri ilə brifinq keçirdi. Görüş Kremldə baş tutdu və dövlət başçısı təcili milli təhlükəsizlik məsələlərini müzakirə etmək üçün Təhlükəsizlik Şurasının əsas üzvlərini topladı. Dövlət Dumasının sədri Vladimir Volodin ABŞ-ın nüvə silahı sınaqlarına qayıtmasını müzakirə etməyi təklif etdi.

Müdafiə naziri Andrey Belousov strateji silahların yerləşdirilməsi ilə bağlı ABŞ-ın tədbirlərinin spektrini təhlil etdi. Buradan aydın oldu ki, nüvə silahları sahəsində qlobal vəziyyət daha da gərginləşir. Bunun əsas günahkarı ABŞ hesab olunur. Nazir ABŞ-ın həyata keçirdiyi işləri qeyd edərək, bunun qlobal gərginliyi artırdığını deyib.

Qeyd olunub ki, Ağ Ev uzun müddətdir mövcud olan silahların azaldılması və məhdudlaşdırılması müqavilələrindən ardıcıl olaraq geri çəkilib: 2002-ci ildəki RƏM (Raket Əleyhinə Müdafiə) Müqaviləsindən, 2019-cu ildəki Orta və Kiçik Mənzilli Nüvə Raketləri Müqaviləsindən və 2020-ci ildəki Açıq Səma Müqaviləsindən. Buna görə də, ABŞ-ın nüvə sınaqlarına qoyulan moratoriumdan imtina etməsi Vaşinqtonun qlobal strateji sabitliyi pozmaq üçün atdığı addım hesab olunur.

Bundan başqa, ABŞ strateji hücum silahlarını sürətlə modernləşdirir. Yeni nüvə başlığı və 13.000 kilometr mənzilli yeni qitələrarası ballistik raket olan Sentinel-in hazırlanması üzərində işlər aparılır. "Ohayo" gəmisinin əvəzedicisi olan qabaqcıl strateji nüvə sualtı qayığı "Columbia" üzərində işlər aparılır. Yeni B-21 Ryder ağır bombardmançı təyyarəsihazırlanır. Nüvə başlığı olan kruiz raketi də hazırlanır. Proqrama həmçinin 14 "Ohayo" sinifli sualtı qayıqdakı 56 buraxılış qurğusunun istismardan çıxarılması və onların "Trident II" ballistik raketləri ilə tam yüklənməsi daxildir. 30 B-52H strateji bombardmançı təyyarəsini yenidən nüvə daşıyıcılarına çevirmək üçün hazırlıq işləri aparılır.

Bununla yanaşı, amerikalılar həm raketlərin vurulmasını, həmçinin Rusiya və Çin raketlərinin buraxılışdan əvvəl ələ keçirilməsini təmin etməyi hədəfləyən "Qızıl Günbəz" proqramını həyata keçirməyə başlayıblar.

Onu da qeyd edək ki, ABŞ ordusu bu ilin sonuna qədər 5500 kilometr mənzilli hipersəs raketlərlə silahlanmış yeni "Dark Eagle" orta mənzilli raket sistemini qəbul etməyi planlaşdırır. Bu sistemin Avropa və Asiya-Sakit Okean bölgəsində yerləşdiriləcəyi gözlənilir.



Bu raket sisteminin yerləşdiriləcəyi planlaşdırılan Almaniyadan Rusiyanın mərkəzi hissəsindəki hədəflərə uçuş müddəti təxminən 6-7 dəqiqə olacaq.

Nəhayət, Vaşinqton müntəzəm olaraq strateji hücum qüvvələri təlimləri keçirir. Rusiya ərazisinə qabaqlayıcı nüvə raket zərbələrinə yönəlmiş ən son belə təlim olan "Global Thunder 2025" bu ilin oktyabr ayında baş tutub.

Ümumilikdə, Rusiya müdafiə nazirinin fikrincə, bütün bunlar ABŞ-ın Rusiya üçün hərbi təhlükə səviyyəsini əhəmiyyətli dərəcədə artıran nüvə sınaqları keçirmək planları da daxil olmaqla vahid tədbirlər toplusunu təmsil edir. Nəticə etibarilə, Rusiya Müdafiə Nazirliyi tammiqyaslı nüvə sınaqlarına dərhal hazırlıqlara başlamağı məqsədəuyğun hesab etdiyini bildirib.

Bütün bunlar onu göstərir ki, ABŞ tərəfi nüvə silahlarının azaldılması ilə bağlı çağırışlara və razılaşmalara məhəl qoymur, ordusunu və silahlarını hücum etmək, təcavüz etmək üzərində formalaşdırır. Bu isə qarşı tərəfləri də (Rusiya və Çin)öz hərbi qüdrətini və nüvə silahı texnologiyalarını genişlənməyə və gücləndirməyə vadar edir. Nəticədə, qlobal nüvə gərginliyi getdikcə daha da güclənir.

Məsələn, Rusiya müdafiə nazirinin bu hesabatından və təklifindən sonra Vladimir Putin bu təklifi dəstəkləyib və Xarici İşlər Nazirliyinə, Müdafiə Nazirliyinə və kəşfiyyat xidmətlərinə nüvə sınaqlarına hazırlıqlara başlamağın mümkünlüyü barədə təklif hazırlamağı tapşırıb. Rusiya lideri bildirib ki, ABŞ öz arsenalını sınaqdan keçirməyə başlasa, Moskva da nüvə sınaqlarını bərpa edə bilər.

"2023-cü ildə Federal Məclisə etdiyim müraciətdə bildirmişdim ki, əgər ABŞ və ya müvafiq müqavilənin (Hərtərəfli Nüvə Sınaqlarının Qadağan Edilməsi Müqaviləsi) iştirakçısı olan digər dövlətlər bu cür sınaqlar keçirərsə, Rusiya da müvafiq cavab tədbirləri görməlidir",- deyə Putin bildirib. O, həmçinin Rusiyanın Hərtərəfli Nüvə Sınaqlarının Qadağan Edilməsi Müqaviləsi üzrə öhdəliklərinə həmişə ciddi şəkildə əməl etdiyini və bu öhdəliklərdən yayınmaq niyyətində olmadığını vurğulayıb.

Moskva Prezident Donald Trampın nüvə sınaqlarının bərpası ilə bağlı açıqlamasından sonra ABŞ-dan rəsmi izahat gözləyir. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, nə Rusiya, nə də Çin bu cür sınaqlar keçirməyib. O, Moskva və Pekinin mövqeyinin dəyişməz qaldığını vurğulayıb: bütün dövlətlər Hərtərəfli Nüvə Sınaqlarının Qadağan Edilməsi Müqaviləsinə (CTBT) əməl etməlidirlər. Daha əvvəl ABŞ prezidenti Tramp Rusiya və Çinin bu cür hərəkətləri barədə məlumatı olduğunu bildirərək sınaqların keçirilməsinə göstəriş vermişdi, lakin dəlil təqdim etməmişdi.

Qəribədir ki, Tramp ABŞ Müharibə Nazirliyinə Rusiya və Çinlə "bərabər şərtlərlə" dərhal nüvə silahlarının sınaqlarına başlamağı əmr edib. Halbuki, ABŞ-da bu cür sınaqlara hərbi nazirlik deyil, Energetika Nazirliyi cavabdehdir.

Amerika Alimləri Federasiyasının məlumatına görə, Rusiyanın ABŞ-dakından (5177) daha çox, yəni 5459 aktiv döyüş başlığı var. Middlebury Kollecinin qlobal təhlükəsizlik üzrə mütəxəssisi Ceffri Lüis artıq "The Wall Street Journal"da ABŞ prezidentinin nüvə sınaqları keçirmək qərarının ciddi nəticələrə, o cümlədən dünyanın Soyuq Müharibə dövründə şahidi olduğu yeni silahlanma yarışına bənzər bir potensiala səbəb olacağı barədə xəbərdarlıq edib. O deyib: "Silahlanma yarışında yeganə qələbə onu dayandırmaqdır" və "Əgər Tramp sınaqlar keçirərsə, Nobel mükafatına əlvida deyə bilər".

Ümumilikdə, əksər ekspertlərin fikrincə, bütün bunlar Vaşinqton və onun hazırkı ehtiyatsız addımlarının son onilliklərdə qurulmuş nüvə təhlükəsizlik sistemini sürətlə məhv etdiyi qənaətinə gəlməyə imkan verir. Nəticədə qlobal təhlükəsizlik azalır və nüvə müharibəsi riskləri artır.

Hər bir halda onsuz da hərbi-siyasi vəziyyətin gərgin olduğu hazırki dünyada silahlanmanı azaltmaq, xüsusən nüvə silahlarını əhəmiyyətli dərəcədə azaltmaq son dərəcə vacibdir. Yenidən silahlanmaya və nüvə arsenalını genuşləndirməyə ehtiyac yoxdur. Çünki həm ABŞ-dakı, həm Rusiyadakı nüvə arsenalı dünyanı dəfələrlə məhv etməyə qadirdir. Üstəlik nəzərə alsaq ki, kütləvi qırğın silahları yalnız atom bombalarından ibarət deyil və hər iki ölkə (o cümlədən Çin) çox növdə kütləvi qırğın silahlarına malikdirlər, o halda dünyanı məhv edəcək hərbi texnologiyaları inkişaf etdirməyə və çoxaltmağa çalışmaq bəşəriyyət üçün ən təhlükəli bir haldır.

1 milyard acın, 3 milyard yoxsulun olduğu bir dünyada trilyonlarla vəsaiti və sərvətləri qorxunc və faciəvi hərbi texnologiyalara, kütləvi qırğın silahlarına yönəltmək ən böyük cinayətdir. Təsəvvür edin ki, təkcə ABŞ-ın hərbi xərcləri 1 trilyon dollara yaxındır. Dünyadakı aclığın kökünü kəsmək üçün isə cəmi 200 milyard dollar vəsait lazımdır.

Heç bir dövlətin ABŞ-a hücum etməyəcəyi, buna risk edə bilməyəcəyini hamı bildiyi halda 1 trilyonluq ordu saxlamaq, dünya ölkələrinə 1000-dən artıq hərbi baza yerləşdirmək bütün dünya üçün ən böyük təhlükənin ABŞ olması deməkdir.

Eləcə də Çin və Rusiya hərbi xərclərə ABŞ-dan dəfələrlə az pul ayırsalar da, kütləvi qırğın silahlarına maya qoymamalı, onların gücləndirmək və çoxaltmağı məqsəd qoymamalıdır. Bu nüvə 9-luğuna daxil olan qalan ölkələrə də aiddir. Nüvə klubunun arsenalının azaldılması üzrə yeni beynəlxalq müqaviləyə ehtiyac var və buna da ciddi beynəlxalq nəzarətin olması vacibdir.

***Elçin Bayramlı***



# Adı ŞİRİN, özü ACI

**MƏTANƏT**

***Bəzən sadəcə "şəkər xəstəliyi" adlandırdığımız diabet hər il dünyada təxminən bir milyon insanın ölümünə səbəb olan, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi böyük vəsait tələb edən xroniki, həm də sürətlə artan bir xəstəlikdir. Adı şirin, lakin özü acılarla dolu bir xəstəlik...***

14 noyabr-bu gün Ümumdünya Diabet Günüdür. Bu gündə ölkəmizdə artıq sayı 300 minədək olan şəkərli diabet xəstələrinin də payı var. Çünki onlar hansısa səbəblərdən artıq bu xəstəliyin daşıyıcısıdır. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, əgər 2019-cu ildə dünyada şəkər xəstələrinin sayı 463 milyon nəfər idisə, hazırda bu rəqəm 537 milyondur.

Statistik məlumatlar göstərir ki, təəssüf ki, Azərbaycanda da diabet xəstələrinin sayının artması müşahidə olunur. 2017-ci ildə müalicə-profilaktika müəssisələrinin qeydiyyatında, təqribən, 243 min diabet xəstəsi olduğu halda, hazırda bu rəqəm 300 minə yaxındır. Şəkərli diabet digər xəstəlikləri kəskinləşdirə, ana və uşaq sağlamlığına mənfi təsir göstərə bilir. Bu xəstəliyin yüksək artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də qabardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib.

2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, 2007-ci ildən etibarən hər il noyabrın 14-ü BMT-nin Ümumdünya Diabet Günü kimi hesab olunur. Bu qətnamənin əsasında dövlətlər ilk dəfə olaraq, qeyri-infeksion xəstəlik olan diabeti dünya miqyasında sağlamlığa ciddi təhlükə mənbəyi sayaraq, İİV/QİÇS, vərəm, malyariya kimi infeksion xəstəliklərlə eyni səviyyədə qəbul etdilər. Qətnamə BMT-yə üzv dövlətləri bu günü təsdiq etməyə, həmçinin bütün millətləri diabetin qarşısını almaq və müalicə etmək üçün milli siyasət oriyentasiyasını hazırlamağa dəvət edib.

Bu faktları sadalamaqda məqsədim yuxarıda da vurğuladığım kimi, şəkərli diabetin adi yox, ciddi xəstəlik olduğunu bir daha nəzərə çatdırmaqla, bu xəstəliklə hər birimizin mübarizə aparmalı olduğunu anlatmaqdır. 300 min heç də kiçik rəqəm deyil. Hələ bu rəqəmin 1800-nün uşaq və yeniyetmələr olduğunu nəzərə alsaq, bu, daha qorxuludur və həyəcan təbilinin çoxdan çalınmalı olduğunu göstərən faktdır.

Düzgün həyat tərzi keçirməklə, evdənkənar qidalarla qidalanmamaqla bu xəstəliyin qarşısını ala bilərik. Ən əsası isə stressdən uzaq olmaqla şəkərli diabeti özümüzdən uzaqlaşdıra, bununla həm özümüzü, həm ailə üzvlərimizi qorumuş olarıq. Bu halda həyatın gözəlliyini də dərindən duya-duya yaşaya bilərik.

Həyat gözəldir... Sağlam yaşadığımız müddətdə bunu dərk etmək istəməsək də, "belə olmalıymış",- deyə düşünsək də, xəstələnəndə tam mənası ilə anlayırıq. Anlayırıq ki, həyatı xəstəliyin verdiyi ağrı-acı ilə yaşamaqdan çətin heç nə yoxdur. Anlayırıq ki, yaşadığımız gün deyil, ağır, ötüb-keçməyən ildir, əsrdir.

Odur ki, bütün bəşəriyyət sağlam olmaq, sağlam yaşamaq üçün mübarizəyə qalxmalıdır. Hər şeyi bir kənara qoyub sağlamlığımız üçün bütün maneələri əllərimizlə özümüzdən kənarlaşdırmalıyıq. Təbiətdə, ətraf aləmdə, iş yerində, evdə sadəcə ruhumuzu oxşayan, sağlamlığımıza xidmət edəcək anlarla yaşamalıyıq. Həyat məhz bu zaman öz gözəlliyi ilə bizim ola bilər. Bu gün haqqında söhbət açdığımız diabet xəstəliyinin də həyatımızın gözəlliyinə kölgə saldığını nəzərə alıb, onunla mübarizə aparmaq və şəkərsiz şirin həyatın sahibi olmaq diləyilə...

# Haradan başlayır vətən?

"Torpaq, uğrunda ölən varsa, vətəndir" deyilməyib boşuna. Bir parça torpağı vətən edən odur ki, onun uğrunda canını fəda edə bilən insanlar var. Ona görə də uğrunda canının veriləbiləcəyi torpaqları vətən kimi ifadə etmək olar. Bununla belə, "Vətən nədir?" suala veriləbiləcək cavablar bunlarla məhdudlaşmır. Vətən hər şeydən əvvəl bir xalq üçün müstəqillik, suverenlik rəmzidir. Çünki heç bir xalq düşmən tapdağı altında olan torpaqda yaşamaq istəmir və yaşaya bilməz. Əslində, vətən elə torpaqdır ki, onu düşmən boyunduruğunda saxlamaq olmaz. Vətən bizim ümumi evimizdir və o evin sahibi yadlar ola bilməz.

Vətən, milli düşüncəli və millət sevdası ilə yaşayanların toplaşdığı yerdir. Azərbaycanın milli dövlətçilik strategiyası da həmişə bu istiqamətdə aparılıb. Prezident İlham Əliyevin həyata keçirdiyi konsepsiyaya görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlətçilik prinsipində dini dəyərlərin payına da önəm verilir. Dövlətimiz ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına da xidmət edir. Bu istiqamətdə atılan hər bir addım dədə-babalarımızdan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Dövlətimiz özündə həm milli, həm də dini dəyərləri ehtiva edən mənəviyyatlı bir cəmiyyətin sütunudur. Ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir, bu istiqamətdə dövlət proqramları təsdiq edir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və dini-milli dəyərlərini qoruması önə çəkilir. İndi Dövlətçilik siyasıtində "gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərmağan edilməlidir" prinsipi əsas götürülür.







Hamımızın anadangəlmə, yaradılışdan bir vətəni olur - doğulduğu, böyüdüyü, son nəfəsini aldıqdan sonra əbədi yuxuya getdiyi torpaqlar. Hamımız sevincimizi, kədərimizi o torpaqda yaşayırıq, dərdimizi onunla bölüşür, sevincimizi onunla paylaşır, ruzimizi ondan alırıq. İnsanlar öz kökünü, bir millətə mənsubluq hissini adına vətən dediyimiz torpaqlarda qazanır. Ona görə də insanlar dünyaya gələndən ölənədək vətən üçün yaşayır, vətən üçün çalışırlar. Müharibələr vətən üçün baş verir, qələbələr vətən üçün qazanılır. Vətən sevgisi ata mirası kimi nəsildən nəsilə ötürülür, vətən sevdası beləcə müqəddəsləşir.

Ailə və ağsaqqallıq institutları, doğma dil, din, əxlaqi və mental dəyərlərə söykənən dövlətçilik sistemi əslində bizim milli-mənəvi sərvətimizdir, şansımızdır. Sarsılmaz dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. İndi o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan öz tarixi boyunca məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub, inkişaf edib və elə də davam edəcək.

Vətən sevgisini mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız bayrağı, danışdığımız dili, həm yaşayıb, həm də yaşatdığımız mədəniyyəti sevmək kimi izah etmək olar.

Əslində, vətən sevgisi sırf sözlə ifadə oluna bilməyəcək bir hissdir. Vətənini sevən hər bir vətəndaş vətəninin şöhrətini yüksəltmək arzusunda olmalı və bu yolda çalışmalıdır. Yəni vətən sevgisi doğma yurdumuzda əmin-amanlıq, firavanlıq, sabitlik şəraitində yaşamaq üçün çalışmaq tələb edir.

Vətənpərvərlik təkcə indiki zamana dair hiss və düşüncələrimizlə deyil, həm də gələcək üçün hisslərimiz, ideallarımız və məsuliyyətlərimizlə əlaqəli bir anlayışdır. Bu kontekstdə gələcək nəsillərə miras qoyacağımız vətən sevgisi, onlarda vətən sevgisini aşılamaq baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də vətən sevgisi təkcə keçmişdə yaşamış əcdadlarımıza, bu torpaqlar uğrunda vuruşmuş görkəmli Azərbaycan sərkərdələrinə, Vətən müharibələrində şəhid olmuş oğullara minnətdarlıq borcu deyil, həm də gələcəkdə vətənin əmanət ediləcəyi gənclərə qalmalı olan müqəddəs bir mirasdır.

Qəlbi vətən sevgisi ilə dolu olan insanlar vətəninə, millətinə faydalı olmaq arzusu ilə özlərini inkişaf etdirir, peşəsini mükəmməl şəkildə icra edir. Vətənini, millətini sevən insanların qəlblərindəki sevgi bəşəriyyət üçün faydalı olmağı prioritet edir. Əslində, vətənini sevən bir insan dünyanı sevir, ölkəsində sülh olmağını istəyən insanlar dünyada sülhü arzulayır. Azərbaycanın şanlı tarixinin vətən sevgisi ilə dolu insanların göstərdiyi qəhrəmanlıq və fədakarlıqlarla zəngin olması da bizim şansımızdır. Əsrlər boyu bu torpaqlarda yaşayan insanların bir idealı olub, o da vətən sevgisi. Tariximiz boyu yadellilərə qarşı döyüşən böyük sərkərdələrin yolu ilə addımlayan qəhrəman Azərbaycan xalqı üçün vətənpərvərlik həyat tərzinə çevrilib.

Qəlbi vətən sevgisi ilə dolu olan xalqımızın fədakar övladları yüz illər əvvəl olduğu kimi bu gün də vətənlərini qorumaq üçün hər cür fədakarlıq edirlər. I və II Qarabağ müharibələrində qəhrəmanlıq edən, şücaət göstərən, şəhidlik zirvəsinə yüksələn oğullarımızı da bu yola vətən sevgisi, yurd sevdası sövq etdi.

Nəticə etibarı ilə vətən sevgisi, xəmirində müqəddəslik və mənəviyyat olan xüsusi bir məfhumdur. Mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız üçrəngli bayrağı, danışdığımız dili qorumaq üçün hər birimiz səfərbərik. Minillərin sınağından keçən vətənpərvərliyimiz bizim həyat tərzimiz, yaşam standartımızdır. Buna görə də qloballaşan dünyada, dəyərlərin, mənəviyyatın getdikcə yox çıxdığı cahanda gələcək nəsillərin bu ruhda yetişdirilməsi vətənpərvərliyin tələbidir. Unutmaq olmaz ki, qəlbi vətən sevgisi ilə dolu olan insanlar təkcə öz ölkəsi üçün deyil, həm də dünya üçün faydalıdırlar. Uşaqların vətənpərvər ruhda böyüməsi, gəncliyin milli tərbiyə alması bir dövlətin gələcəyinin qarant altına alınması deməkdir.

***Lalə Mehralı***

# Qarabasma psixoloji pozğunluqdur, yoxsa...

**"Qarabasma" termini geniş yayılmışdır və müxtəlif mədəniyyətlərdə fərqli adlarla tanınır - məsələn "sleep paralysis" (yuxu paralizi) kimi. Yuxuda oyanma və ya oyanmağa yaxın mərhələdə insanın hərəkət edə bilməməsi, bəzən qorxulu vizual və ya akustik təcrübələr yaşaması ilə müşahidə olunur.**



## Qarabasma və psixoloji pozğunluq arasında əlaqə varmı?

Bu suala cavab "hə" və "yox" vahid şəkildə deyil - daha çox "bəli, bəzi hallarda" şəklində verilməlidir.

## Psixoloji və nevroloji faktorlar

Yuxu-paralizi (sleep paralysis) zamanı beynin "hərəkət mexanizmi" oyanma mərhələsinə keçərkən hələ tam aktivləşməyə bilər və buna görə insan hərəksiz qalır, lakin şüur aktifdir. Bu, qısamüddətli olmaqla, ciddi psixiatriya xəstəliyi sayılmaya bilər.





İlluziya və hallusinasiya

Bu zaman mütləq psixiatrın konsultasiyası lazım gəlir. Bu da göstərir ki, əgər "qarabasma" halları davamlı, sıx və digər simptomlarla bərabərdirsə - məsələn, qorxu, halüsinasiyalar, real objektsiz görmə - bu, sadəcə "yuxu paralizi" deyil, daha ciddi psixi pozuntuya işarə ola bilər.





## Psixi pozğunluqlar

Düşüncə, emosional tənzimləmə və ya davranış pozğunluqlarıyla müşaiət olunur. Bu çərçivədə, qarabasma kimi simptomlar digər psixoloji problemlərin bir hissəsi ola bilər.

Bu simptomlar psixi pozuntusu olan şəxslərdə də, normal insanlarda da müşahidə edilir. Yəni, yuxu şəraitində, yorğunluq, stress altında, yuxu rejiminin pozulması nəticəsində qarabasma halları sağlam insanlarda da ola bilər.

Əgər qarabasma tək-tək, qısamüddətli və baş verəndən sonra öz-özünə keçirsə, və insanın gündəlik funksiyasına ciddi təsir etmirsə - bu, mütləq psixoloji pozuntu sayılmaya bilər. Lakin, əgər bu hallar tez-tez təkrarlanır, gündəlik həyatı pozur, qorxu, halüsinasiyalar, yuxu pozuntuları, ya da "hərəkətsizlik + şüur" halı ciddi dərəcədə baş verirsə - bu zaman psixoloji və ya nevroloji müayinə düşünmək lazımdır.

Yuxu rejiminin pozulması, uzun müddət yuxusuz qalmaq, yorğunluq - bu, qarabasma hallarının yaranmasına səbəb ola bilər. Məsələn, məqalədə qeyd olunur ki, "evdə o qədər qaldım ki, gözümə qarabasma görünür". Stress, travma, psixoloji gərginlik - misal üçün, "qorxular nəticəsində yaranmışdı" deyən pasiyentlər olmuşdur.



Qan dövranının zəifləməsi, qan azlığı kimi fiziki faktorlar da rol oynaya bilər.

Psixi pozuntuya meyllik varsa - yuxu pozuntuları ilə yanaşı digər simptomlar varsa - risk artır.

## Qarabasma müalicəsi və tövsiyələr

Yuxu rejimini tənzimləmək - müntəzəm yatmaq-oğlanmaq, yuxuya hazırlıq rejimini yaxşılaşdırmaq (məsələn ekranlardan uzaq durmaq, sakit mühit yaratmaq).

Stressin idarə olunması - meditasiya, rahatlama texnikaları, gündəlik gərginliyi azaltmaq.

Fiziki sağlamlıq faktorlarını yoxlamaq - məsələn qan əskikliyi varsa, ona qarşı tədbir almaq.

Psixoloqla məsləhətləşmək - əgər bu hallar sıxlaşırsa, peşəkar yardım faydalı olar.

## Daha ciddi hallarda isə...

Əgər qarabasma halları halüsinasiyalar, şiddətli qorxu, gündəlik həyatda funksionallığın pozulması ilə müşahidə olunursa psixiatrik müayinə düşünülməlidir. Məqalədə tipik hal nümunəsi verilmişdir: "onunla da psixoloji iş apardıq və uğurlu nəticə əldə etdik".

Terapiya: kognitiv-davranışçı terapiya, travma sonrası stressin müalicəsi, yuxu terapiyaları və başqa müvafiq metodlar.

Lazım olduqda nevroloq və ya yuxu mütəxəssisi ilə məsləhətləşmək - bəzi hallarda yuxu xəstəlikləri (məsələn narcolepsy, yuxu paralizi) səbəb ola bilər.

"Qarabasma" - tamamilə xaric edilə bilməyən, həm normal fenomen, həm də bəzi hallarda ciddi psixoloji və ya nevroloji pozuntunun simptomu ola bilən bir təcrübədir. Bu səbəbdən əgər nadir və yüngül haldadırsa - sadə tədbirlər kifayət edə bilər.

Lakin, əgər hal-halları çoxalıb, gündəlik həyatı pozubsa - psixoloji pozuntu (və ya nevroloji pozuntu) ehtimalını gözdən keçirmək vacibdir.

***Arzu Qurbanlı***

# Diabet: bədən qidanı niyə enerjiyə çevirə bilmir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı "istiqaməti çərçivəsində hazırlanıb*

***Qeyri-normal qidalanma, hərəkətsizlik fonunda yaranan şəkərli diabet xəstəliyinin arealı getdikcə böyüyür. Statistik məlumatalara görə dünyada hər 6 saniyədə 1 nəfər şəkərli diabetdən qaynaqlanan xəstəlik və sağlamlıq problemləri səbəbindən ölür. Araşdırmalar göstərir ki, 2035-ci ildə diabetdən əziyyət çəkən insanların sayı bütün dünyada 600 milyona yaxınlaşacaq.***









Beynəlxalq Diabet Federasiyasının "Diabetes Atlas 11th Edition (2025)" hesabatına görə, hazırda dünyada 20-79 yaş aralığında təxminən 589 milyon nəfər şəkərli diabetlə yaşayır. Eyni hesabatda diaqnoz qoyulmamış şəkərli diabet xəstələrinin sayı da təxminən 252 milyon olaraq göstərilib. Qlobal miqyasda isə, "World Health Organization"nun araşdırmalarına görə şəkərli diabet xəstələrinin sayı 800 milyonu ötüb. Bu, yuxarıda qeyd edilən proqnozların qat-qat üstündə olan rəqəmdir. Beynəlxalq Diabet Federasiyasının sözügedən hesabatına görə, 20-79 yaş aralığında Azərbaycanda şəkərli diabet xəstələrinin sayı təxminən 715 300 nəfərdir. Yerli rəsmi statistikada isə 2024-cü ildə tibb müəssisələrində qeydiyyatda olan xəstələrin sayı 423 523 nəfər idi.




### Yenidoğulmuşdan yaşlıya qədər...

Tibb elminin şəkərli diabet kimi tanıdığı şəkər xəstəliyi, bədənin, qidanı enerjiyə çevirməsini ləngidən və ya yox edən uzunmüddətli, xroniki bir xəstəlikdir. Bu xəstəlik zamanı, mədəaltı vəzi kifayət qədər insulin istehsal edə bilmir və qanda qlükoza yığılması nəticəsində qan şəkərinin artması müşahidə olunur. Orqanizmin ehtiyac duyduğu enerji, əsas qida maddələri olan zülallar, yağlar və karbohidratlar tərəfindən təmin edilir. Bu qidaların ən mühüm hissəsi "qlükoza", yəni sadə şəkərdir. Qan, orqanizmin enerji ehtiyacı üçün lazım olan qlükozanı bədənin bütün hüceyrələrinə daşımalıdır.

Qlükoza, orqanizm, xüsusilə beyin üçün ən vacib enerji mənbəyidir. Hüceyrələr ehtiyac duyduqları qlükozanı mədəaltı vəzidən ifraz olunan insulin hormonu vasitəsi ilə alır. Bədəndə insulin hormonu istehsal oluna bilmirsə, qlükoza enerji olaraq istifadə edilə bilməz və qan şəkəri yüksəlir. Şəkərli diabet xəstələrinin qanında şəkərin miqdarı artır və böyrəklər vasitəsilə xaric olur. Mədəaltı vəzinin kifayət qədər insulin hormonu istehsal etməməsi və ya onun istehsal etdiyi insulin hormonunu orqanizmin istifadə edilə bilməməsi nəticəsində yaranan diabet yeni doğulmuş körpədə və ya 80 yaşlı qocada da rast gəlinə bilər.

Kənddən şəhərə axının başlanması ilə yayılan bu xəstəliyin ən birinci dostu oturaq həyat tərzidir. Bütün günü hərəkətsiz qalan və qeyri-sağlam qidalanan insanlar üçün bu xəstəlik sürpriz olmur. Əvvəllər daha çox orta yaşlı və yaşlı insanlarda rast gəlinən xəstəliyin yaşı yenidoğulmuşlaradək enib. İndi anadangəlmə şəkər xəstəsi olan körpələr var.

### İnsulin çatışmazlığı nədən yaranır?

Diabet xəstəliyinin ən çox yayılmış növləri 1-ci və 2-ci tip diabetlərdir. 1-ci tip diabet insulin hormonunun mütləq çatışmazlığı ilə yaranır. 1-ci tip şəkərli diabet insulin istehsalını öhdəsinə götürən mədəaltı vəzinin beta hüceyrələrinin məhv edilməsi, virus, dərman qəbulu, peyvənd, fiziki və ya psixi stress və s. səbəbiylə immunitet sisteminin fəaliyyətinin pozulması nəticəsində inkişaf edir. Bu pozulma 80%-dən çox olduqda şəkərli diabet əlamətləri görünməyə başlayır. Bu xəstələr ömürlük insulin dəstəyi almalıdırlar.

2-ci tip şəkərli diabetin ilkin mərhələlərində mədəaltı vəzi kifayət qədər miqdarda insulin ifraz etsə də, ifraz olunan insulin hüceyrələr tərəfindən istifadə oluna bilmir. Xəstəliyin sonrakı mərhələlərində mədəaltı vəzidən insulin ifrazı qeyri-kafi olur. 2-ci tip diabetdə uzun illər heç bir klinik əlamət müşahidə oluna bilməz.




İnfeksiya, cərrahiyyə, hamiləlik, stress və ya artıq çəki artımı diabeti klinik olaraq aşkar edə bilər. 2-ci tip diabet adətən 40 yaşdan yuxarı insanlarda olur. Ailə üzvlərində şəkərli diabet xəstəsi olan insanlarda, artıq çəkili insanlarda və çəkisi 4 kq-dan çox uşaq dünyaya gətirən qadınlarda bu tip diabet riski daha yüksəkdir.

Ağız quruluğu və buna görə də daha tez-tez hiss edilən susuzluq hissi, gecələr daha tez-tez sidiyə getmə, yorğunluq, plansız kilo itkisi, yaraların daha yavaş sağalması, artan aclıq hissi və bulanıq görmə diabetin ümumi əlamətləridir. Əllərdə və ayaqlarda uyuşma, dəridə quruluq, genital bölgədə qaşınma, əsəb, tez-tez dəyişən əhval-ruhiyyə də şəkərli diabetin göstəricisi ola bilər.

### Uşaqlarda diabetin əlamətləri hansılardır?

Qeyd etdiyimiz kimi, "diabetes mellitus" şəkər, yağ və zülal mübadiləsinin pozulması nəticəsində yaranan, insulin ifrazının və ya təsirinin çatışmazlığı nəticəsində inkişaf edən, qanda şəkərin artması ilə nəticələnən, ömür boyu davam edən xəstəlikdir. Uşaq diabetinin 97 faizi 1-ci tip diabetdir.

Diabet xəstəliyinin ana, ata və bacı-qardaşlarında daha çox olması, biri şəkər xəstəsi olan əkizlərdə bu ehtimalın yüzdə 50-yə yaxın olması iris xəstəlik olmasını sübut edir. Xəstəliyin yaranmasında virus infeksiyaları, qidalanma, toksinlər və stress kimi ətraf mühit faktorları da rol oynayır. İnfeksiyalar hüceyrələrə birbaşa zərər verərək və ya immunitet sistemini pozaraq beta hüceyrələrin məhvinə başlayır. Parotit və məxmərək kimi epidemiyalar zamanı 1-ci tip diabetin tezliyində artımlar müşahidə edilib.

Körpələrə erkən aylarda inək südünün verilməsi də diabet səbəbi ola bilir. Araşdırmalara görə ana südü əmən uşaqlara nisbətən inək südü ilə qidalanan uşaqlarda diabetin inkişafı daha sürətli gedir. Maraqlıdır ki, diabet xəstələrinin 30-40 faizində insulinə qarşı anticisimlər aşkar edilir. Bu anticisimlər bədənin öz mədəaltı vəzi toxumasına qarşı bir növ müharibəyə başladığını göstərir. Yəni, orqanizm öz mədəaltı vəzi toxumasını yad toxuma kimi qəbul edir, parazit zənn edir və onu bədəndən çıxarmağa çalışır.

Ölkəmizdə şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya xəstəliyi, dağınıq skleroz xəstəliyi üzrə dövlət proqramlarının icrası ilə əlaqəli fəaliyyət aparılır. Onlar dövlət proqramı çərçivəsində müvafiq tibbi xidmətlə və mərkəzləşdirilmiş qaydada verilən dərman preparatları ilə təmin olunurlar. Şəkərli diabet diaqnozu qoyulan xəstələr lazımi müalicə almadıqda, həyat şərtlərini dəyişmədikcə, qidalanma rejimini düzəltmədikcə bu xəstəliklə ömürləri 8 il qısalır. Diabetdən qorunmaq üçün ən vacib addım qan şəkərini nəzarət altında saxlamaqdır. Statistik rəqəmlər qorxulu olsa da, oturaq həyat tərzindən uzaqlaşmaq, habelə düzgün qidalanma vərdişləri ilə diabetin qarşısını almaq mümkündür.

*PS: Noyabrın 14-ü bütün dünyada Şəkərli Diabet Günü kimi qeyd edilir. Adı şipşirin, özü zəhər kimi acı xəstəliyin qurbanı olmamaq üçün sağlam qidalanmaya, bol hərəkətə diqqət etmək mütləqdir.*

***Lalə Mehralı***

SƏS
14 noyabr
2025-ci il

# “İnformasiya zibillənməsi mənəvi dəyərləri zədələyir”

“İnternet, sosial media və yeni platformalar (”YouTube”, ”TikTok” və s.) sayəsində informasiyanın yayılması sürətlənib. Lakin bu, eyni zamanda yanlış, dezinformasiya xarakterli və təhlükəli məzmunların da yayılmasına səbəb olub. Bu səbəbdən istər dünyada, istərsə də Azərbaycanda informasiya təhlükəsizliyinə dair qanunverici aktlar qəbul olunub, dövlət qurumları bu sahəyə nəzarəti gücləndiriblər”.






Bu sözləri SİA-ya açıqlamasında sosioloq Aydınxan Əbilov deyib. Onun sözlərinə görə, hər bir internet istifadəçisi istər blogger, istər adi şəxslər sosial şəbəkələrdə paylaşdığı məlumatlara görə məsuliyyət daşımalıdır: ”Lakin bəzi hallarda istifadəçilər yazdıqları şərhlərin və paylaşdıqları məlumatların hüquqi nəticələrindən xəbərsiz olurlar. Bu, internetin ilkin mərhələlərində daha geniş yayılmışdı. İndi isə istifadəçilər daha ayıqdır və saxta informasiyaların zərərini dərk etməyə başlayıblar.

İnformasiya zibillənməsi yəni internetdə lazımsız, yanlış, zərərli məlumatların artması cəmiyyətə mənfi təsir edir, milli və mənəvi dəyərləri zədələyir. Bu səbəbdən hər kəs alimlər, jurnalistlər, siyasətçilər, ictimai xadimlər və adi vətəndaşlar bu prosesə qarşı məsuliyyətli davranmalıdırlar. Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları bu sahədə nəzarət tədbirləri görür, qanun pozanlara qarşı hüquqi addımlar atılır. Beynəlxalq platformalar da (Facebook, X/Twitter, TikTok və s.) öz qaydalarını sərtləşdirərək zərərli məzmunları bloklayır və istifadəçi profillərini bağlayırlar.

Azərbaycan qanunvericiliyində informasiya təhlükəsizliyi ilə bağlı inzibati və cinayət məsuliyyətləri mövcuddur. Cərimələr, ictimai qınaq və maarifləndirmə tədbirləri bu sahədə intizam yaratmaq üçün vasitə kimi nəzərdə tutulur. Təklif edirəm ki, informasiya Təhlükəsizliyi və Sosial Media İnkişafı Fondu kimi bir qurumun yaradılsın və cərimələrdən toplanan vəsait internetin sağlam inkişafına yönəldilsin. İnformasiyanın təhlükəsizliyi yalnız dövlətin deyil, hər bir vətəndaşın məsuliyyətidir. Doğru və sağlam informasiya mühiti qurmaq üçün həm hüquqi, həm də mənəvi məsuliyyət əsasdır. Sosial şəbəkələrdə sərbəstliyin arxasında ciddi bir məsuliyyət durur və bunu hər kəs dərk etməlidir”.

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Nar”da bu axşam daha bir avtomobil sevinci!

***Sərfəli mobil operator ”Nar” ”Çoox Şanslı” lotereyası çərçivəsində bu axşam növbəti avtomobil tirajını keçirəcək. Həyəcanla gözlənilən tirajda ”Haval H6 Ultra” avtomobilinin üçüncü qalibi müəyyən ediləcək. Bununla yanaşı, daha üç ”Nar” abunəçisi ”Xiaomi Redmi Note 14 Pro” smartfonunu qazanacaq.***

Qeyd edək ki, qaliblərin adları tam təsadüfi seçim əsasında müəyyən edilir və nəticələr canlı yayımda elan olunur. Bu lotereyada ilin sonuna qədər ”Nar” abunəçilərihər gün ”Xiaomi Redmi Note 14 Pro” smartfonu, hər həftə ”Haval H6 Ultra” avtomobili və finalda ”Li L9 Ultra” avtomobili kimi möhtəşəm hədiyyələr qazana bilər.




Xatırladaq ki, ”Çoox Şanslı” lotereyasında iştirak etmək üçün ”Nar” abunəçiləri sadəcə balanslarını artıra və ya şans qazandıran şanslıpaketlərdən birini aktivləşdirə bilərlər. Belə ki, 1 AZN-lik şanslı paketə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik şanslı paketə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES; 3 AZN-lik şanslı paketə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür.Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır. Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını ”Nar+” tətbiqi və nar.azveb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər.

# “Qaraciyər sirrozu - vaxtında diaqnoz və sağlam həyatla qarşısı alınan təhlükə”




“Qaraciyər sirrozu, insan orqanizmində həyati əhəmiyyət daşıyan orqanlardan biri olan qaraciyərin toxumasının zədələnməsi və bu zədələnmiş toxumanın yerinin çapıq (fibroz) toxuması ilə əvəz olunması nəticəsində yaranan ciddi bir xəstəlikdir”. Bu sözləri SİA-ya açıqlamasında Səhiyyə Nazirliyinin həkim eskperti Zakir Quliyev deyib. Onun sözlərinə görə, bu proses qaraciyərin əsas funksiyalarının tədricən zəifləməsinə, orqanizmin ümumi fəaliyyətinə mənfi təsir göstərən ağır fəsadların yaranmasına gətirib çıxarır: ”Sirrozun yaranmasına bir çox amillər səbəb ola bilər. Ən geniş yayılmış səbəblər sırasında spirtli içkilərin uzunmüddətli qəbulu, virus mənşəli hepatitlər (xüsusilə hepatit B və C), autoimmun hepatit, bəzi infeksiyalar, ürək çatışmazlığı və qaraciyərin piylənməsi (yağlanması) göstərilir. Bu amillər nəticəsində normal qaraciyər hüceyrələri zədələnir, onların yerini çapıq toxuması tutur və bu, orqanın bərpa olunma qabiliyyətini azaldır.



Xəstəliyin əlamətləri hər bir insanda fərqli şəkildə özünü göstərə bilər. Bəzi hallarda xəstəlik uzun müddət simptomsuz gedir və yalnız irəliləmiş mərhələdə aşkar olunur. Sirrozun ən təhlükəli ağırlaşmalarından biri qanaxmadır, xüsusilə də mədə-bağırsaq sistemindən olan daxili qanaxmalar həyati təhlükə yarada bilər. Digər ağırlaşmalar sırasında hepatoensefalopatiya (qaraciyər funksiyasının pozulması nəticəsində yaranan şüur pozuntuları), assit (qarın boşluğunda maye toplanması) və qaraciyər xərçəngi (hepatosellular karsinoma) qeyd olunur.

Qaraciyər sirrozunun qarşısını almaq üçün bir sıra profilaktik tədbirlər vacibdir. Əvvəla, spirtli içkilərdən tamamilə uzaq durmaq, sağlam qidalanmaq və artıq çəki ilə mübarizə aparmaq lazımdır. Bundan əlavə, hepatit viruslarına qarşı mütəmadi tibbi müayinədən keçmək, vaxtında müalicə almaq və qaraciyər funksiyasını göstərən analizləri (ALT, AST, GGT və s.) periodik şəkildə yoxlatdırmaq tövsiyə olunur.

Nəticə etibarilə, qaraciyər sirrozu tədricən inkişaf edən, lakin vaxtında diaqnoz və düzgün müalicə ilə nəzarət altında saxlanıla bilən xəstəlikdir. Mütəmadi tibbi nəzarət, sağlam həyat tərzi və düzgün profilaktika bu xəstəliyin ağırlaşmalarının qarşısını almaqda əsas rol oynayır”.

***Ziya Hikmətoğlu***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**